

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


№ 233 (7158)

SƏS

18 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik


## Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında Anlaşma Memorandumu imzalanıb



4

# Ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələri uğurla inkişaf edir



2

**Prezident İlham Əliyev Rusiyanın Tatarıstan Respublikasının Rəisi ilə görüşüb**

# Yeni baş nazir və ya Makronun "tarixi müttəfiqi"




3

## Sosial media: sərlövhə mətbuatı



8

## ""Soyuq əllər, isti ürək"də hər şey nağıl kimidir"



10

## Əmlak nə zaman etibarlı sayılmır?



13

## Əli Kərimli dağıdıcı müxalifətin başıbəlalı simasına çevrilib



13

## Vladimir Putin - Rusiya üçün etdikləri və Rusiyadan aldıqları...



7

# Ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələri uğurla inkişaf edir

## Prezident İlham Əliyev Rusiyanın Tatarıstan Respublikasının Rəisi ilə görüşüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşüb. Əvvəlcə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun Azərbaycanın "Dostluq" ordeni ilə təltifedilmə mərasimi oldu. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Rüstəm Minnixanov "Dostluq" ordeni ilə təltif edilib.***

Prezident İlham Əliyev: Layiq olduğunuz mükafat münasibətilə Sizi təbrik edirəm. Uzun illərdir ki, Siz ənənəvi əlaqələrimizin möhkəmlənməsi üçün çox iş görürsünüz. Ona görə də belə yüksək mükafatı Sizə təqdim etmək və yeni uğurlar arzulamaq mənim üçün çox xoşdur.



Rüstəm Minnixanov: Cənab Prezident, çox sağ olun. Bu, yüksək mükafatdır. Biz Rusiya-Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi yüksək qiymətləndiririk. Tatarıstan burada xüsusi yerə malikdir. Tarixən belə alınıb ki, qardaş xalqlarımız və ən başlıcası, liderlərimiz - Azərbaycanın Lideri Heydər Əliyev və birinci Prezidentimiz Mintimer Şaripoviç Şaymiyev bizim inkişaf etdirdiyimiz həmin kursun əsasını qoyublar. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov birgə nahar ediblər.





# UNESCO Ermənistana faktaraşdırıcı missiya göndərsin - Azərbaycan QHT-lərindən Azuleyə çağırış



Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri UNESCO-nun Baş direktoru Odri Azuleyə Açıq Məktub ünvanlayıb. AZƏRTAC xəbər verir ki, məktubda deyilir: "Biz sizə Ermənistanın Azərbaycan xalqına məxsus mədəni və tarixi irsi məqsədli şəkildə məhv etməsindən dərin narahatlığımızı ifadə etmək və bununla bağlı əməli addımların atılmasına çağırış etmək məqsədilə müraciət edirik. Ermənistanın həyata keçirdiyi siyasət nəticəsində Qərbi Zəngəzur, Qafan, İrəvan, Göyçə, Nüvədi, Vedi və digər bölgələrdə Azərbaycan xalqının mədəni irsi məhv edilib, mənimsənilib. Məsələn, İrəvanda yerləşən Dəmirbulaq məscidi 1990-cı illərin əvvəllərində buldozerlə dağıdılıb, XVI əsrə aid Sərdar məscidi isə bir neçə mərhələdə məhv edilib. Qala məscidi, Şah Abbas məscidi, Təpəbaşı məscidi, Zal Xan məscidi, Sərtib Xan məscidi, Hacı Novruzəli bəy məscidi, Hacı Cəfər bəy məscidi, Rəcəb Paşa məscidi, Məhəmməd Sərtib Xan məscidi, Hacı İnam məscidi və Ermənistan ərazisində yerləşən 300-dən artıq digər dini və mədəni abidələri eyni aqibətlə üzləşib.

Bundan əlavə, Ermənistan ərazisində Aşağı Şorca, Qullubulaq, Saral və Ağadada kimi 500-dən artıq Azərbaycan qəbiristanlığı təhqir edilərək dağıdılıb". Azərbaycan QHT-ləri bunu qəbuledilməz sayıb, o da vurğulanıb Aşıq Ələsgərin məzarı da bu cür münasibətlə üzləşib. Qeyd olunub ki, bu geniş miqyaslı kampaniya yalnız fiziki dağıntılarla məhdudlaşmayaraq, Azərbaycan kəndlərinin tarixi adlarının da tamamilə dəyişdirilməsi və erməni adları ilə əvəzlənməsi ilə müşayiət edilib: "Ermənistan ərazisində qalan yeganə məscid - İrəvandakı Göy Məscid saxtalaşdırılaraq "fars məscidi" kimi təqdim edilir".

Məktubda xüsusi qeyd edilir ki, İrəvanda yerləşən və Azərbaycanın tarixi şəhərinin yeganə qalıqları olan Təpəbaşı məhəlləsi tamamilə məhv təhlükəsi ilə üz-üzədir, bununla bağlı dəfələrlə məsələ qaldırılsa da, UNESCO praktiki addımlar atmayıb: "UNESCO-nun məsələyə təcili müdaxiləsi zəruridir. Təşkilatın üzv dövlətlərindən biri tərəfindən mədəni mülkiyyətin məqsədyönlü şəkildə məhvinə və Azərbaycanın mədəni irsinin, tarixi köklərinin inkar edilməsinə qarşı UNESCO prinsipial və ardıcıl mövqe nümayiş etdirməlidir. Biz - Azərbaycanın QHT nümayəndələri UNESCO-dan Ermənistan ərazisinə faktaraşdırıcı missiya göndərməsini, Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətini monitorinq etməsini və sənədləşdirməsini, Ermənistandan UNESCO sənədləri də daxil olmaqla, beynəlxalq konvensiyalar çərçivəsində mədəni irsin qorunması üzrə öhdəliklərinə əməl etməsinin tələb olunmasını bir daha xahiş edirik".

Açıq Məktubu "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, Qərbi Azərbaycan İcması, "Miras" Mədəni İrsin Təbliği İctimai Birliyi, "İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyi, "Zəngəzur" Cəmiyyətləri, Beynəlxalq Avrasiya Mətbuat Fondu, D.Əliyeva adına Azərbaycan Qadın Hüquqları Cəmiyyəti, Azərbaycan Milli İnsan Hüquqları Cəmiyyəti, "Hüquqların və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyi, "Obyektiv" Milli Dəyərlərin Təbliği İctimai Birliyi, "Prioritet" Sosial İqtisadi Tədqiqatlar Mərkəzi, "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi, "ICOMOS Azərbaycan" İctimai Birliyi, Cəfər Cabbarlı Mədəniyyət, Elm və Təhsilin İnkişafı İctimai Birliyi, "Mədəniyyət Könüllüləri" İctimai Birliyi, Azərbaycan Mədəni İrsinin Qorunması və Turizmə Dəstək Assosiasiyası, "Əbədi Turan" Kitab Fondu, "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması", Mirzə Ələkbər Sabir Fondu, "Zirvə" Mədəniyyət və İncəsənət İctimai Birliyi, "İz" Mədəni İnkişaf və Dəstək İctimai Birliyi və Müvəkkil Hüquq Mərkəzi imzalayıb. Hələlik UNESCO Açıq Məktuba heç bir cavab verməyib.

# Yeni baş nazir və ya Makronun "tarixi müttəfiqi"

Məlum olduğu kimi, Demokratik Hərəkat Partiyasının lideri Fransua Bayru Fransanın yeni baş naziri təyin edilib və bu barədə dekabrın 13-də Yelisey sarayında məlumat verilib. Bu qərarı Fransa lideri Emmanuel Makronun məhz partiya nümayəndələri ilə bir həftəlik məsləhətləşmələrdən sonra verdiyi də çox "önəmli informasiya" olaraq yayılmaqdadır. Hətta bu seçimin siyasi müstəvidə çox vacib olduğunu "Le Parisien" məxsusi şəkildə qeyd edib və belə çıxır ki, Fransa prezidenti Makron "öz adamını" hakimiyyətə gətirmək üçün çalışıb və hansısa mənada "öz istəyinə" nail olub. Bir çox politoloqlar və ekspertlər yeni baş naziri hətta Makronun tarixi müttəfiqi belə hesab edirlər və bəzi faktar onların fikirlərini təsdiqləyir.




## Fransa prezidenti üçün "neytral variant" doğru seçim hesab olunub

Bir çoxları Fransanın yeni baş nazirini "neytral variant" da adlandırırlar. Maraqlıdır, niyə belə adlandırılır və buna səbəb nədir? Məsələ burasındadır ki, Fransanın yeni baş nazirinin "karyerasının" necə inkişaf etdiyi və həmin siyasətçinin mövqeyi onun "neytral" olduğunu təsdiqləyir. Bununla bağlı, yəni, onun "neytrallığı" ilə bağlı kifayət qədər faktlar var.

Bəli, Makron yeni baş nazirlə bağlı qərar verib. Demək olar ki, bu qərarı elə özü düşünüb və qərarını da doğru hesab edib. Çünki bu qərar ona sərf edir. Məhz elə sərf etdiyi üçün də dekabrın 13-də Fransa prezidenti Emmanuel Makron ölkənin yeni baş nazirinə təyin edib və 73 yaşlı mərkəzçi, Demokratik Hərəkat Partiyasının lideri Fransua Bayru Fransa prezidentinin istəyinə uyğun olaraq, baş nazir olub. "Respublika Prezidenti Emmanuel Makron cənab Fransua Bayrunu baş nazir təyin edib və ona hökuməti qurmağı tapşırıb", - deyə mediada məlumatlar yer alır. Amma bu məlumatlar içərisində daha "maraqlı" olanları da var və onlar məsələnin nə yerdə olduğundan xəbər verir.

Məlumatlara görə, Bayru dekabrın 13-də səhər saatlarında Makronla 1 saat 45 dəqiqə davam edən "məsləhətləşmələr" üçün Yelisey Sarayında olub. Qeyd olunur ki, ancaq son ana qədər təyinatla bağlı onun heç bir əminliyi belə olmayıb. Məsələ burasındadır ki, "yeni baş nazirin seçilməsi" Makronun guya bir həftədən çox vaxtını alıb. Bəzi məlumatlara görə, Fransa prezidenti son üç ay ərzində əvvəlki baş nazirin namizədliyini dəfələrlə nəzərdən keçirib. Fransanın "Le Parisien" nəşrinin məlumatına əsasən, Fransua Bayru müdafiə naziri Sebastyan Lekornu ilə birlikdə baş nazir postuna əsas namizəd hesab olunub. Amma yekunda nədənsə məhz onun seçimi "neytral variant" olub. Məhz elə həmin variant doğru hesab olunduğuna görə də Bayru altıncı baş nazir seçilib. Bəli, baş nazir Mişel Barnierdən səlahiyyətlərinin Nazirlər Kabinetinin yeni rəhbərinə ötürülməsi mərasiminin Matinyon sarayında keçiriləcəyi də artıq çoxdan qərarlaşdırılıb.

## Fransua Bayru haqqında məlumatı olanlar onu Makronun "tarixi müttəfiqi" adlandırırlar

Fransua Bayru haqqında nələr məlumdur? Kim olub Bayru və fəaliyyəti, mövqeyi haqqında bilinən nədir? "Le Parisien" jurnalistləri qeyd ediblər ki, Fransua Bayru "dövlət başçısının tarixi müttəfiqi" adlandırılmalıdır. Onlar bunu əsaslandırmaqdan da çəkinməyiblər. Sözügedən nəşrin jurnalistləri qeyd ediblər ki, Makronun həm birinci, həm də ikinci prezidentlik dövründə ransua Bayru onu fəal şəkildə dəstəkləyib. Hətta bildirilir ki, Bayru öz "sadiq adamı" kimi Fransa prezidentinin "xidmətində" olub.

İstər jurnalistlərin qeyd etdikləri, istərsə də tarixi faktlar təsdiq edir ki, 2017-ci il seçki "yarışının" son həftələrində Bayru "geri çəkilib", Makrona öz "sadiqliyini" göstərib. Onun belə "sədaqəti" Emmanuel Makrona da qalib gəlməyə imkan verib, hansıki, bu barədə tam açıq şəkildə fransız nəşri də qeyd edir. Yəni, həmin məlumat heç də əsassız sayıla bilməz. Bunu heç Makron özü də hər halda təkzib etməz. Axı bu qədər "sədaqətin" qarşılığında Fransa prezidenti başqa nə edə bilər? Sözsüz ki, nə etdiyi göz önündədir. Bayrunun "sadiqliyi" və "neytrallığı" Fransa prezidenti tərəfindən "qiymətləndirilib", onu, yəni, öz "tarixi müttəfiqini" seçməyi doğru addım hesab edib. Belə çıxır ki, Fransua Bayru haqqında məlumatı olanların onu məhz Makronun "tarixi müttəfiqi" adlandırmaları tamamilə məntiqidir.

## Ölkəsinin "ən təcrübəli" siyasətçilərindən sayılan Bayru haqqında bilinənlər

Doğrudur, Bayru ölkənin "ən təcrübəli" siyasətçilərindən biri hesab olunur. Onunla bağlı məlumatlar təsdiq edir ki, Fransua Bayru əmək fəaliyyətinə məmur kimi başlayıb və sonra Avropa Parlamentində də çalışıb. Digər məlumatlarda qeyd olunur ki, 1993-1997-ci illərdə Bayru Fransanın Təhsil və Elm Naziri, 2017-ci ildə isə Ədliyyə Naziri olub. Hətta rəsmi məlumatlara görə, o, sonra ikinci hökumətdə iştirakdan imtina edib. Amma niyə və nə səbəbə imtina etdiyi guya ki, müəmmalı hesab olunur. Əslində isə, məsələnin kökündə nələrin dayandığı bəllidir və elə Makron da indi bunu nəzərə alıb.

Fransua Bayru heç də fransalılar üçün sıradan bir adam hesab edilmir. Çünki onun "karyerası" olduqca, özü də kifayət qədər "zəngin" sayılır. Beləki, fransızlar da yaxşı bilirlər ki, o, yəni Fransua Bayru 2002, 2007 və 2012-ci illərdə nə az nə çox, düz üç dəfə prezident seçkilərində iştirak edib. Hətta onun məhz sonuncu dəfədə də beşinci yeri tutduğu fransızlara yaxşı məlumdur. O da məlumdur ki, Bayru uzun onilliklər ərzində mərkəzçi Demokratik Hərəkat Partiyasının sədri olub. Bundan əlavə, Bayrunun tarixi mövzularda kitablar yazdığı da sirr deyil. O, Fransa kralı IV Henrixin tərcümeyi-halının müəllifidir. Bir sözlə, Fransa prezidentinin "seçimi" elə fransızların özlərinə belə çoxdan tanışdır və indi barəsində bilinənlər və deyilənlər, yəni, onun "tarixi müttəriq", "neytral variant" sayılması heç də təsadüfi hesab oluna bilməz.

## İdarə olunan siyasətçi olduğu üçün və mövqeyini çox tez-tez ifadə etmədiyinə görə Fransua Bayru "neytral" hesab olunur

Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq Münasibətlər fakültəsinin Avropaşünaslıq kafedrasının dosenti Dmitri Levi özü də Fransua Bayrunu "neytral variant" adlandırıb. Onun fikrincə, Bayru Emmanuel Makronun işinə qarışan deyil və elə məhz buna görə Makron məhz öz seçiminin doğru olduğu qənaətindədir. "Bayru idarə olunan siyasətçidir", deyən dosent öz fikrini bu şəkildə əsaslandırıb. Onun sözlərinə görə, Fransua Bayru mövqeyini çox tez-tez ifadə etmir. Yəni, Sankt-Peterburq Dövlət Universitetinin dosenti açıq şəkildə bildirib ki, Bayru "neytral" adamdır. O, həmçinin Makronun yeni seçdiyi baş nazirin bundan sonrakı fəaliyyətinin müəmmalı olacağını da qeyd edib. "Fransua Bayrunun hazırki real hakimiyyətlə özünü necə aparacağı hələ ki, cavabı olmayan sualdır", deyə Dmitri Levi vurğulayıb.

Levi onu da qeyd edib ki, bu gün Fransa dərin siyasi böhran içindədir və çox şey prezident Makronun həm ölkə sakinləri, həm də hökumət rəsmiləri ilə nə dərəcədə dialoq qura biləcəyindən asılı olacaq. "Çox güman ki, sarsıntılar, bəlkə də ən tez zamanda dəyişikliklər, Fransa hökumətinin yenilənməsi və sözsüz, ölkə prezidenti ilə hakimiyyətin digər qolları arasında münaqişəni də yaxın zamanda müşahidə edə bilərik", deyə ekspert açıq şəkildə bildirib. Bir sözlə, hələ həmin "neytral" adlandırılan siyasətçinin taleyinin necə olacağı özü də sual altındadır və hər halda, bunu ölkə daxilində olan məsələlərdən də görmək çətin deyil.

## "Tarixi müttəfiq" saydığı birini seçim etməkdə Makron ölkəsini yox, yalnız özünü düşünüb

Bilsiyimiz kimi, 5 dekabr 2024-cü ildə Mişel Barnier hökuməti parlamentin etimadsızlıq səsverməsindən sonra istefaya göndərildi və onun istefasından sonra Fransa lideri Emmanuel Makron "çox yaxın gələcəkdə" yeni baş nazir təyin edəcəyinə də söz verdi. Üstəlik, prezident yeni kabinetin sabit və "2027-ci ildə prezidentlik müddətinin sonuna qədər davam edə biləcək" olmasını da təkid etdi. Hətta bundan sonra Fransa prezidenti radikal solçu "İtaətsiz Fransa" və Marin Le Penin "Milli Mitinq" partiyası istisna olmaqla, bütün partiyaların nümayəndələri ilə bir sıra dırnaqarası "məsləhətləşmələr" də apardı.

Doğrudur, Fransua Bayrunun hələ formalaşmamış Nazirlər Kabinetinin nə qədər davam edəcəyini proqnozlaşdırmaq çətindir. Marin Le Pen, "İtaətsiz Fransa" partiyasının lideri Jean-Luc M?lençon da onun seçilməsinə qəti şəkildə qarşıdır. "İtaətsiz Fransa" fraksiyasının lideri Matilde Panot özü də bildirib ki, yeni baş nazir Fransua Bayru solçuların nümayəndəsi olmadığı üçün partiya ona etimadsızlıq səsverməsi keçirmək istəyir. Belə çıxır ki, bu xəmir hələ çox su aparacaq və hələ bundan sonra gözlənilməz hadisələr də baş verə bilər.

Siyasətçilər özləri də belə hesab edirlər ki, Fransa seçim qarşısındadır. "Ölkənin, məhz Fransua Bayrunun uğursuz siyasətini davam etdirmək və partlayış olmaqla, iki açıq seçimi var. Deputatların özləri də belə hesab edirlər ki, ortada iki variant var və seçim mütləq olmalıdır. Hansıki bu seçim Makron üçün yox, Fransa üçün çox vacib sayılır. Deputatlar belə hesab edirlər ki, ya Makron dəstəklənməlidir, ya da ölkə "xilas" olmalıdır. Bir sözlə, fransızlar özləri də bilirlər və başa düşürlər ki, Makron baş nazir kimi öz müttəfiqini, onu dəstəkləyən, müdafiə edən, yeri gələndə "neytral" olmağı bacaran, idarə olunan, lazım olanda tez-tez öz mövqeyini ifadə etməyən birini, yəni, "tarixi müttəfiq" saydığı birini seçim etməkdə yalnız özünü düşünüb, ölkəsini yox.

***İnam Hacıyev***

# Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında Anlaşma Memorandumu imzalanıb



**Dekabrın 17-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ilə ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikasının Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huongun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə Azərbaycan ilə Vyetnamın bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğu qeyd edilib.**

Xalqlarımız arasındakı münasibətlərin təməlinin hələ SSRİ dövründə qoyulduğu xüsusi vurğulanaraq Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyəti qeyd olunub.





Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşılıqlı səfərlərin əhəmiyyəti nəzərə çatdırılaraq 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfərinin, 2015-ci ildə isə Vyetnam Prezidenti Truonq Tan Sanqın Azərbaycana rəsmi səfərinin ölkələr arasında siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələlərdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaratdığı vurğulanıb. Bu gün iki ölkənin liderlərinin siyasi iradələri sayəsində ölkələrimiz arasında fəal siyasi dialoqun və beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığın mövcud olduğu bildirilib.

Milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin edən və beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirən Azərbaycan ilə Vyetnamın iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsində maraqlı olduqları diqqətə çatdırılaraq müvafiq dövlət qurumları, o cümlədən Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında əməkdaşlığın önəmi vurğulanıb.

Hər iki ölkənin statistika sahəsində təcrübəsinin qarşılıqlı maraq doğurduğu qeyd olunaraq müvafiq dövlət qurumlarının fəaliyyəti barədə ətraflı məlumat verilib, islahatlardan və innovasiyaların tətbiqindən bəhs edilib. Komitə sədri Tahir Budaqovun 2023-cü ildə Vyetnama səfəri çərçivəsində baş direktor Nguyen Thi Huongunlə görüşü məmnunluqla xatırlanaraq həmin görüş zamanı gələcək əməkdaşlığa dair səmərəli fikir mübadiləsinin aparıldığı bildirilib.





Daha sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Memorandumu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və Vyetnam Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huong imzalayıblar.

Memorandumdan irəli gələn vəzifələrin icra olunmasının səmərəli nəticələr verəcəyinə - statistika sahəsində əməkdaşlığın inkişafına, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsinə və dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

# Vyetnam nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin dəvəti ilə Vyetnam Sosialist Respublikasının Baş Statistika İdarəsinin baş direktoru Nguyen Thi Huongun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.***

Səfər çərçivəsində dekabrın 17-də Dövlət Statistika Komitəsinin rəhbərliyi və Vyetnam nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



Sonra Şəhidlər Xiyabanı ziyarət olunaraq Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

# "İqtisadi siyasət xarici siyasətin tərkib hissəsi kimi bir-birini balanslaşdırmalıdır"

"İqtisadiyyatın siyasətə, siyasətin də iqtisadiyyata bağlılığı var. Hər ikisi bir-birini balanslaşdırmalıdır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib. O bildirib ki, bu iki kateqoriya arasında balans pozularsa, təlatüm başlayır: "İqtisadi siyasət xarici siyasətin tərkib hissəsi kimi bir-birini balanslaşdırmalıdır. Azərbaycan xarici siyasət doktrinasında balanslaşdırıcı siyasət həyata keçirir. Azərbaycan regionda aparıcı dövlət olduğuna görə böyük güclərin diqqət mərkəzindədir. Eyni zamanda Cənubi Qafqaz region dövlətlərin maraq dairəsindədir. Bu baxımdan Azərbaycan xarici siyasətini daxili iqtisadi siyasəti ilə tarazlaşdırır və balanslaşdırır.



Azərbaycan Prezidentinin apardığı xarici və daxili siyasət Azərbaycanın iqtisadi siyasətində hesablanmış addımdır. Uzun müddət idi ki, Azərbaycanın 20% torpağı işğal altında idi. Cəmiyyətdə birmənalı şəkildə bu torpaqların azad edilməsi barədəsində tələblər olurdu. Azərbaycan Prezidentinin apardığı xarici siyasət bu torpaqları işğaldan azad etdi. Bunun üçün mütləq hərbi doktrina gücləndirilməlidir. Hərbi doktrinanın güclənməsi üçün Azərbaycanın iqtisadiyyatı, gəlirlərin əksər hissəsi bu sahəyə yönəldilməlidir. Bu baxımdan Azərbaycan sərvətinin, iqtisadi gəlirlərinin bir hissəsi bu səmtə yönəlmişdi. Azərbaycan cəmiyyətində də müəyyən sosial problemi olan insanlar da var. Bütün cəmiyyətlərdə belədir. Torpaqların azad edilməsi üçün mütləq Azərbaycan iqtisadiyyatının bir hissəsi hərbi doktrinanın güclənməsinə yönəlməli idi. Belə olan təqdirdə sosial vəziyyətin aşağı olması labüd idi.

Torpaqlar işğaldan azad edildi. 30 ildə Ermənistan işğal etdiyi əraziləri talan etdi. İndi də Azərbaycan iqtisadiyyatının bir hissəsi işğal olunmuş torpaqların azad edilməsinə yönəlib. Quruculuq işləri gedir, böyük miqdarda vəsait xərclənir. Azərbaycanın öz daxili potensialı hesabına quruculuq işləri gedir. Yenə də Azərbaycanda sosial vəziyyətə yönələn vəsait bu səmtə yönəlir. Azərbaycan Prezidentinin apardığı quruculuq siyasəti ilə bölgələrin inkişafı diqqət mərkəzində olan məsələlərdir. İqtisadiyyatın inkişafı üçün mütləq enerji təhlükəsizliyi təmin edilməlidir. İqtisadiyyatın əsas bazası enerjidir.

Azərbaycan Avropanın 10-a yaxın dövləti ilə iqtisadi əməkdaşlığını genişləndirir və yaşıl enerji ideyasının müəlliflərindəndir. Bu baxımdan Azərbaycan həm region dövlətlər, həm də qlobal güclərin də diqqətindədir. Azərbaycanın yeraltı və yerüstü sərvətləri kifayət qədərdir. Həm də Azərbaycanın kadr potensialı da kifayət qədərdir. Çünki iqtisadiyyatın inkişafı üçün mütləq şəkildə kadr potensialına da ehtiyac var. Azərbaycanda 9 iqlim qurşağı var. Aqrar sahənin inkişafı üçün münbit baza var. Bu sahənin inkişafı üçün də kadr potensialına ehtiyac var. Azərbaycanda xarici universitetlərin yaradılması və kadr yetişdirilməsi üçün xüsusi tələb var. İqtisadiyyatın inkişafı təkcə xammalla bağlı deyil. Bu baxımdan iqtisadiyyatı inkişaf etdirmək üçün mütləq kadr potensialı lazımdır. Bunun üçün ali məktəblərin yaradılması, kadrların hazırlanması qısa müddətdə olan məsələ deyil. Bu sahədə də kifayət qədər işlər görülməkdədir".

"Buna baxmayaraq Azərbaycanda sosial təminatı aşağı olan insanlar da var. Bu da dövlətin diqqət mərkəzindədir. Aztəminatlı ailələrə, işsizlərə dövlət qayğısı var. Azərbaycanın azad edilmiş ərazilərinə böyük miqdarda vəsait sərf olunur. Əgər bu vəsaitləri iqtisadiyyata qoysaq, təbii ki, daha çox nailiyyətlər əldə etmək olardı. Təəssüflər olsun ki, bədnam qonşularımız var. Ermənistan sürətlə silahlanmağa üstünlük verir. Azərbaycan özünü müdafiə etmək üçün hərbi gücünü yenə də gücləndirməlidir. Azərbaycanın gəlirlərinin bir hissəsi bu sahəyə yönəlir. Ona görə də, iqtisadiyyatda bir qədər geriləmələr yaranır. Ən başlıca məsələ xalqın, dövlətin təhlükəsizliyidir. Azərbaycan Prezidentinin apardığı xarici və daxili siyasət iqtisadi, hərbi, həm də digər sahələrdə özünü təsdiqləyir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***





# Yeni Azərbaycan Partiyası müşavirə keçirib

Dekabrın 17-də Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planına uyğun olaraq səsvermə gününədək müşahidə aparacaq şəxslərin təlimatlandırılması məqsədilə onlayn müşavirə keçirilib. Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat və izahat verilib. Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq tapşırıq və tövsiyələr diqqətə çatdırılıb.




# "Asiyada daha təhlükəsiz, dayanıqlı və səmərəli infrastrukturun təşviqi üçün çalışacağıq"

Biz nəqliyyat dəhlizlərinin genişləndirilməsi, Asiyada daha təhlükəsiz, dayanıqlı və səmərəli infrastrukturun təşviqi üçün çalışacağıq. AQEM Biznes Şurasının vasitəsilə kiçik və orta sahibkarların sərmayələrə, bazarlara çıxışı, onların elektron kommersiya kimi innovativ metodlarla beynəlxalq ticarətdə iştirakı, həmçinin kənd təsərrüfatında innovativ yanaşmalar daxil olmaqla, Sədrliyin bu çərçivədə diqqət yetirəcəyi sahələr arasında yer alacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov AQEM Nazirlər Şurasının 7-ci görüşündə çıxışı zamanı söyləyib.

Nazir diqqətə çatdırıb ki, yeni çağırışlar və təhdidlər ölçüsü üzrə diqqət qabiliyyət-quruculuğunun təşviqinə, eləcə də kibertəhlükəsizlik və şəxsi məlumatların mühafizəsi üzrə uğurlu təcrübələrin mübadiləsinə yönələcək. Biz AQEM məkanında məlumatların mühafizəsi üzrə hüquqi çərçivənin harmonizasiyası, habelə kibertəhlükəsizlik və məlumatların məxfiliyi mədəniyyətinin təşviqi üçün çalışacağıq.

"Ətraf mühit ölçüsünün mərkəzində müxtəlif sahələrdə konkret layihələr vasitəsilə yaşıl keçidin və dayanıqlı inkişafın təşviqi duracaq. Bu xüsusda, müxtəlif prioritet sahələr arasında qarşılıqlı əlaqənin təşviqi üçün bir-biri ilə kəsişən mövzuları əhatə edən gündəlik hazırlanacaq", - deyə Ceyhun Bayramov əlavə edib.

# Xalçaçılıq sənəti doğma Qarabağımızda

Azərbaycan xalçasının dünyada xalçaçılıq sənətinin etalonu kimi dəyərləndirilməsi əbəs deyil. Sankt-Peterburqda Ermitaj, Londonda Viktoriya və Albert, Vaşinqtonda Tekstil, Parisdə Luvr, İstanbulda Topqapı kimi dünyanın böyük muzeylərini bəzəyən Azərbaycan xalçaları xalqımızın fərqli milli sərvətidir. Azərbaycan xalçaçılıq məktəblərindən söz açarkən Qarabağ xalçaçılıq məktəbini də xüsusi olaraq qeyd etməliyik. Həyat eşqi və parlaq koloriti ilə seçilən Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Mənbələrdə göstərilir ki, onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunub. Xanlara məxsus böyük sarayların və iri malikanələrin bəzədilməsi üçün böyük ölçülü xalılar toxunmuşdur. Qarabağın hər şəhərinin, hər kəndinin özünəməxsus xalça ənənələri var. Tarixən burada istehsal olunan xalçalar bütün dünyada əks-səda doğurub. Bu diyarın istedadlı sənətkarları əsrarəngiz xalçalar toxuyaraq ilmələrdə öz dünyagörüşünü, həyat fəlsəfəsini, bədii zövqünü əks etdirib. Azərbaycan qadın ustalarının əlləri ilə yaradılan gözəl xalçalar və xalça məmulatları Azərbaycanın çox fərqli milli sərvətidir.

Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Bu cür istehsalımız olan və bütövlükdə dünyamızı özündə əks etdirən xalçamız Azərbaycanın məxsusi dəyərlərini, tarixini özündə cəmləşdirir.

## BƏDİİ ELEMENTLƏRİNİN ORİJİNALLIĞI VƏ NAXIŞLARININ İNCƏLİYİ

Xalçaçılıq sənəti xalqın milli mədəniyyəti tarixində müstəsna olaraq yer qazanmışdır. Tarixi qədim bir dövrü əhatə edən xalçaçılıq sənəti müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar çadırların, alaçıqların, habelə yaşayış evlərinin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda yüksək estetik əhəmiyyət kəsb edir. Xalçaçılığın istehsalı, tərtibi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır.

1949-cu ildə aparılan arxeoloji axtarışlar zamanı xalçanın yaşının 2500 il tarixi olduğu qeyd olunur. Məlumdur ki, Azərbaycan xalçaçılıq sənəti qrup və tiplərə bölünür: Təbriz, Qazax, Gəncə və s. Hər bir ərazinin öz milli xüsusiyyətləri əsasında xalça üzərində ornamentlər gözəl bir təsvir yaradır. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq xalçaçılıq məktəbinə bölünür. Burada hər bir ərazinin təbiətinə uyğun olaraq rənglərdən istifadə olunur. Azərbaycanın şimal-şərqində yerləşən Quba xalça mərkəzi üç hissəyə-dağlıq, dağətəyi və ovalıq hissələrə bölünür. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvan motivləri təşkil edir. Bu məktəbin xalçalarında medalyonlu çeşni üslubu da geniş yayılmışdır. Bakı məktəbi, Abşeronun kəndlərinin xalçalarına gəlincə isə burada hazırlanan xalçalar daha yumşaqlığı, rənglərinin intensivliyi, bədii elementlərinin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Xalçaların bəzəklərində həndəsi formalı göllər, əyri xətli nəbati elementlər üstünlük təşkil edir. Bakı qrupuna aid xalçaların rəng koloritində əsasən tünd göy, nadir hallarda isə qırmızı və sarı rənglərdən istifadə edilir. Bu xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur.

## PALİTRASI ZƏNGİN



## QARABAĞ XALÇALARI

Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Yazılı mənbələrdə ərəb tarixçiləri Əl-Müqəddəsi, Məsudi və b. tərəfindən göstərilir ki, X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi adı çəkilən Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. "Aran xalçası", "Bağçadagüllər xalçası", "Balıq xalçası", "Buynuz xalçası", "Bərdə xalçası", "Bəhmənli xalçası", "Qarabağ xalçası", "Qoca xalçası", "Qasımuşağı xalçası", "Ləmbəran xalçası", "Muğan xalçası", "Talış xalçası", "Lampa xalçası", "Malıbəyli xalçası", "Xanqərvənd xalçası", "Xanlıq xalçası", "Xantirmə xalçası", "Çələbi xalçası", "Şabalıdbuta xalçası", və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir.

Mənbələrdə göstərilir ki, xalq dastanının qəhrəmanı, Şərqin böyük şairi Firdovsinin "Şahnamə" poemasında baş qəhrəman Rüstəmə həsr edilmiş Qarabağ xalçaları xüsusilə diqqəti çəkəndir. Rüstəm və Söhrab xalçalar seriyası miniatür rəngkarlığı üçün ənənəvi kompozisiya prinsiplərinin xalq ruhunda təfsiri ilə diqqətəlayiqdir. Bunlar öz ideya, bədii xüsusiyyətlərinə görə xalq xalçaçılıq sənətinin sözün əsl mənasında tayı-bərabəri olmayan inciləridir.

## SƏNƏT VƏ DƏYƏR ƏFSANƏSİ

Qarabağ xalçaçılıq məktəbinə məxsus "Əjdaha xalçası" Viktoriya və Albert muzeyində saxlanılır. Xalça Balıq Bu xalça Qarabağ tipinin ən geniş yayılan xalçalarından biridir. Ölkəmizin şimalında "Balıq", İran Azərbaycanında isə "Moxi" adı ilə tanınır. "Balıq" xalçası Qarabağan bütün xalçatoxuma məntəqələrində istehsal olunmasına baxmayaraq, onun əsas istehsal mərkəzi Bərdə şəhəri hesab olunurdu. XVIII əsrin ikinci yarısından isə "Balıq" xalçası Şuşa şəhərində də istehsal olunurdu.

"Qarabağ" adı ilə tanınan xalçalar Azərbaycanın bütün xalçatoxuyan məntəqələrində istehsal olunub. Azərbaycan xalçaçılıq məktəblərindən olan Qarabağ xalçaçılıq məktəbinin Cəbrayıl qrupuna aid edilən xovlu Qasımuşağı xalçasıdır. "Qasımuşağı xalçası"nın adı Laçın rayonunun şimalında yerləşən Şamkənd, Ərikli, Kürdhacı, Çorman və Şəlvə kəndinin əhalisinin adı ilə bağlıdır. Qasım Hacı Sam oğlu qeyd-şərtsiz bir vaxtlar burada yaşayan hörmətli şəxs olub. Bu kəndlərdə yaxın keçmişə qədər yüksək növ xalçalar istehsal olunurdu. Bəhmənli xalçası isə Füzuli rayonunda yerləşən Böyük Bəhmənli kəndinin adı ilə bağlıdır. "Bəhmənli" xalçasının orta kompozisiyası bir-birinin ardınca düzülmüş, orijinal formalı fiqurlar təşkil edir.



Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri bir sənət və dəyər əfsanəsinə çevrilib. Qəmiqayadan, Qobustandan, Kür-Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır.

## ŞUŞADA KLASSİK ÇEŞNİLİ XALÇALAR

Xalçaçılıq sənətindən söz açarkən Şuşa xalçaçılıq sənətini də xüsusi olaraq qeyd etməliyik. Şuşa xalçaları xovunun hündür olması, əlvan, şux koloritli, çox nazik, incə xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Şuşa xalçalarını səciyyələndirən cəhət təbii boyaq maddələrin xalçalara verdiyi parlaqlıq, şux rəng palitrasıdır. Azərbaycanda olan 1500 növ boyaq bitkisinin əksəriyyəti Qarabağda olmuş, burada toxunan xalçaların ipliklərinin boyanmasında onlardan istifadə olunmuşdur. Şuşada 35-dən artıq orijinal xalça çeşnilərindən istifadə olunmaqla xalçalar toxunmuşdur. Şuşa həm də ipək xalçaları ilə şöhrət qazanmışdır. İpək xalçalar, əsasən, mötəbər şəxslər, zadəganlar üçün sifarişlə və ya ixrac məqsədilə toxunurdu. Mənbələrdə göstərilir ki, XVIII əsrin ikinci yarısından etibarən Qarabağın xalça istehsalı əsasən Şuşa şəhərində mərkəzləşir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə Şuşa XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi, rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud" xalçaları və "Dəst xalı-gəbə" kimi xalça dəstləri burada toxunub. Qarabağın əksər məntəqələrində, o cümlədən Şuşa şəhərində toxunan xalçalar əmtəə xarakterli olub Rusiya, Avropa, Asiya ölkələrinə ixrac olunmuşdur. XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Rusiyadan, eləcə də Avropadan gətirilmiş məcməyi, ətirli sabun, çit və digər müxtəlif məişət əşyaları üzərindən götürülmüş naxışlardan yeni xalça kompozisiyaları - "Bağçadagüllər xalçası", "Saxsıdagüllər xalçası", "Bulud xalçası" və s. çeşnilər toxunurdu. Qarabağ xalçalarının rəng - boyaq palitrası olduqca zəngindir. Bu palitra Qarabağ təbiətinin bütün rənglərinin ən zərif çalarlarını özündə əks etdirir. Qədim dövrlərdən Azərbaycan xalçalarının ara sahə yerliyi ənənəvi olaraq qırmızı rəngdə işlənmişdir.

Statistik məlumatlara görə, 1885-1887-ci illərdə Şuşanın xalça istehsalından gəliri 30 min rubl olmuşsa, 1890-cı illərdə bu gəlir artıq 200 min rubla çatmışdır.

Qeyd edək ki, yenidən qurulan Şuşamızda tarixi, dini və mədəni abidələrimiz də təmir və bərpa olunur, yeni həyat və nəfəs verilir. Artıq Şuşada Milli Xalça Muzeyinin Şuşa filialı fəaliyyət göstərir. Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın daxili divarları, döşəmələri, tavanları bərpa olunub. Sonradan alçıpanla bağlanılan qapı, pəncərə, tavan və arakəsmə divarlar götürülərək binanın tarixi siması özünə qaytarılıb. Binanın fasadındakı çatlar bərpa olunub və daşla üzlənib.

## TORPAĞININ RUHU, İNSANLARIN ESTETİK ZÖVQÜ DUYULAN SƏNƏT

Qarabağ torpaqlarının Ermənistanın işğalına məruz qaldığı dövrdə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi. İndi burada ekspozisiyada vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Burada ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur. Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə edə bilmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Qarabağın, xüsusilə də Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti haqqında məlumatlar verilir. Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu, əsrlərlə burada yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü, bədii dünyagörüşünü duymağa, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır. Artıq bir çox abidələrimiz, memarlıq nümunələrimiz kimi, öz həyatına qovuşan Milli Xalça Muzeyinin Şuşa filialı tarixi məkanda fəaliyyətini davam etdirir.

Qarabağ həsrəti çəkən insanlarımız öz yurdlarına qayıdırlar. Qız-gəlinlərimiz yenidən Azərbaycan xalqının ruhunu, hisslərini özündə əks etdirən əsrarəngiz, tayı-bərabəri olmayan biri-birindən nəfis xalçaları Qarabağda toxuyacaqlar.

*Nəzakət ƏLƏDDINQIZI*

# Dini-tarixi abidələrimizə dövlət qayğısı




Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Dövlət başçısı mütəmadi olaraq, din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir və dini ibadət yerləri təmir-bərpa olunub, inanclı insanların istifadəsinə verilir. Ölkə ərazisində 2200-dən artıq məscid fəaliyyət göstərir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də, dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Əsrlərin süzgəcindən keçərək, müasir dövrümüzədək qoruyub-saxladığımız milli-mənəvi, dini adət-ənənələrimiz yaşayır və düzgün şəkildə insanlara çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, ordumuzun hünəri ilə Azərbaycanın dövlət bayrağı azad Qarabağda, Şuşada, Xankəndidə dalğalanır, məscidlərin minarələrindən Azan səsləri ucalır, müqəddəs məbədlərimiz əsarətdən qurtulmuşdur. Azad olunmuş torpaqlarımızda gedən dinc quruculuq, yenidənqurma işləri, dini-mənəvi abidələrə yeni həyat bəxş olunması, vandalizmə məruz qalmış ziyarətgahlara, qəbirstanlıqlarımıza sahib çıxılması, soydaşlarımızın dədə-baba torpaqlarına qayıdışı istiqamətində dövlət başçımız tərəfindən həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

### XALQININ MİLLİ-MƏNƏVİ VƏ DİNİ DƏYƏRLƏRİNƏ BÖYÜK EHTİRAM

Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Çoxəsrlik tarixə malik olan abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilib. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

### QƏDİM MƏDƏNİYYƏTİN TƏŞƏKKÜL TAPDIĞI QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR

Bu gün işğaldan azad olunan ərazilərimizdə də dini abidələr təmir və bərpadan sonra istifadəyə verilir. Belə ki, Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışı olub. Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı olmaqla 17 məhəllədən ibarət olub. Aşağı Gövhər Ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb. Məscidi daha uca və cəlbedici etmək üçün memar minarələri arxa fasadda yerləşdirib. İkimərtəbəli məscidin silindrşəkilli minarələri kərpicdən hörülüb, ibadət zalı çatma tağ günbəzlə örtülüb. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi.

Bərpa işləri zamanı Aşağı Gövhər Ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub. Məscidə gələn hər bir ziyarətçi tarixi-dini abidəyə qarşı erməni vandalizminə dair bu faktların şahidi ola bilər. Qeyd edək ki, məscid ərazisindəki tarixi mədrəsə binasında hazırda muzey yaradılıb.

### "MÜSƏLMAN ALƏMİNDƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN SƏYLƏRİMİZİ ƏSİRGƏMİRİK"

İşğalın ən ağır fəsadlarından biri bəşəri əhəmiyyətə malik mədəni irsin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsidir. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə artmaqdadır. Muzeydə Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirmək və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə foto və videomateriallar nümayiş olunur.

İndi əzəli sakinlər bu yerlərdə dini ayinləri yerinə yetirirlər. Zidiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

**ZÜMRÜD BAYRAMOVA**



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Vladimir Putin - Rusiya üçün etdikləri və Rusiyadan aldıqları...

***Vladimir Putin... Dəqiq yadımdadır ki, 1999-cu ilin 31 dekabrında Boris Yeltsin xalqa müraciətindən sonra sarışın, bəstəboy Baş naziri kabinetinə dəvət edib hakimiyyətin açarını ona verdi. Həmin axşam Rusiya ilə yanaşı bütün bəşəriyyət Vladimir Putin adı ilə əməllicə tanış oldu. Yadıma gəlir, artıq idarəolunmaz hala gələn Boris Yeltsin 1999-cu ilin son dekabr gecəsində kabinetini balacaboy Vladimir Putinə təhvil verəndə gözləri yaşarmışdı. Kremldə nostalji anlar yaşandı o məqamda. Yeni ili qarşılamaq üçün süfrə axasında "vodka"nı qucaqlayan ruslar, əsl şok yaşayırdı. İllərin araq düşkünü olan Boris Nikolayeviç sanki kabinetini deyil, axirət evini V.Putinə hədiyyə edirdi...***

Çeçenistan müharibəsində əməllicə dağılıb bataqlıqda boğulan, əksər federasiya subyektlərində müstəqillik çağırışlarının hər gün baş qaldırdığı, dünya siyasətində Kremlin etibardan və nüfuzdan düşdüyü bir zamanda Rusiya üçün leninqradlı KQB generalı əsl xilas kimi göründürdü. Ən əsas da böyük dövlətin ipini əməllicə çəkmək lazım idi və V.Putin bunu bacardı. Çeçen mücahidləri meşələrdən belə qovub çıxaran, özbaşınalıq və xaosa sürətli şəkildə son qoyan V.Putin, Rusiyada əvvəlcə dəmir idarəçilik, sonrakı illərdə isə hakimiyyət fironluğu yaratdı. Artıq 2000-ci illərin sonundan başlayaraq Rusiyada despot idarəçilik o həddə çatmışdı ki, hüquq ən sonda gəlirdi....

### Ukrayna batağlığından salamat çıxıb yeni, modern Rusiya qurmaq leninqradlı çekistin işi deyil...

Kimdir V.Putin, hakimiyyətə gəldikdən sonra Rusiya üçün nə etdi, Rusiyanı və rusları haradan hara gətirdi? Kremldə 25 ilə yaxınlaşan hakimiyyəti zamanı Rusiya balacaboy V.Putindən nə qazandı, nə itirdi? Bu suallara cavab tapmaq üçün hazırkı Rusiyanın görkəminə nəzər salmaq kifayətdir məncə. V.Putin tarixi baxımdan xarizmatik liderdir, burası mübahisəsiz belədir. O, SSRİ-nin süqutundan sonra dünya siyasətində qapazaltı vəziyyətinə düşən Rusiyanın dünyadakı imicini özünə qaytaran və daha da gücləndirən şəxsdir. O, Çeçenistan müharibəsi zamanı dağılmaqda olan Rusiyanın ipini yığıb dövləti qorudu. O, Rusiyanı əyyaş B.Yeltsinin zamanındakı qapazaltı dövlət imicindən xilas edib, hazırda dünyada əsas güc sahiblərindən birinə çevirdi.

V.Putinin özü o dərəcədə gücləndi ki, hətta ABŞ-dakı seçkilərə barmaq uzadacaq qədər güc nümayiş etdirdi. Bu, sözün əsl mənasında Rusiya üçün Putinin kimliyini göstərən tarixi pasportdur.Amma tarixi baxımdan ruslar daha V.Putinin despot idarəsi altında yaşaya bilmirlər. Rusiya cəmiyyəti sözün əsl mənasında despot idarəçiliyin yumruğu altında boğulur, vəssalam. Həm də indiki vaxtda Rusiya üçün yenilik etmək, Ukrayna bataqlığından salamat çıxıb yeni, modern Rusiya qurmaq leninqradlı çekistin işi deyil. V.Putin həm də siyasi ierarxiyası və şəxsi hikkələri üçün Rusiyanı - iqtisadiyyatı, mədəniyyəti, zəngun rus ənənələrini qurban verdi...

Rusiyanı bürüyən cinayətkar məmur şəbəkəsi, iqtisadi böhran, sosial partlayış həddinə çatan ürəkağrıdan vəziyyət artıq V.Putinlə bu cür davam etmənin mümkün olmayacağının siqnalını verir. Bu il Rusiyanın özünü şoka salan "Vaqner" qiyamı, Yevgeni Priqojinin silahlı dəstələrinin Moskva yaxınlığına qədər irəliləməsi, Ukraynadakı əzablı müharibə gərginliyi, almanların Ukrayna uniforması altına Belqoroda qədər irəliləməsi Rusiyada V.Putin dönəminin finiş xəttinə yaxınlaşdığına işarədir. V.Putinin 25 ilə adlayan "dəmir yumruğu" ilə rusları bundan sonra da ovutmaq belə görünür ki, mümkünsüz məsələdir.

Bütün günü tutuquşu kimi V.Putini zəhlətökən şəkildə tərifləmək, ona yaltaqlanmaq üçün ən həyasız cildlərə girən marqarita simonyanlar, vladimir solovyovlar, onlardan geri qalmayan rusiyalı ekspert və analitiklər, Rusiya telekanallarının səhərdən axşama qədər Kreml sahibinə rus çarı kimi tərif yağdıran şablon "verilişləri" artıq rusların özlərinə belə çox iyrənc görünür. Bir zamanlar Dostoyevskinin, Puşkinin, Lermantovun əsərləri ilə qidalanan, bütün dünya ədəbi düşüncəsində hegemoniya yaradan Rusiya ədəbiyyatı artıq ancaq xatirələrdə yaşayır. Yoxdur artıq elit və intellektual Rusiya cəmiyyəti, getdi işinin dalınca. Rusiya cəmiyyəti, bu gün sərxoş, ac və ümidsiz insan toplumunun faciəsini, əvəzində bundan fərqli olaraq harınlamış cinayətkar məmur elitasının harınlığını izləyir, vəssalam!

V.Putin Rusiyanı faktiki dağılmaq və parçalanmaq təhlükəsindən xilas etdisə də, əvəzində düşünən rus ictimai fikrini, dərin köklərə sahib rus ədəbiyyatını, yüksək intellektual televiziya proqramlarını kökündən məhv etdi. V.Putin bununla həm də ilk növbədə Rusiyanın gələcəyini əlindən aldı! Rusiyanın Ukrayna böhranından hansı halda çıxacağı məlum deyil. Amma tək məlum olan odur ki, tükənən, yorulan və gələcəyə ümidi olmayan rus cəmiyyəti var ortada. V.Putin Rusiyadan hər şeyini aldı, kompassız gəmi dənizin ortasında necədirsə, ümidsiz rus cəmiyyəti də bu gün o durumdadır.V.Putinin Rusiyadan aldıqlarını geri qaytarması artıq mümkün deyil, - çünki qaytarılası heç nə qalmayıb...

# Sosial media: sərlövhə mətbuatı

Dünyada artıq qəzet oxunmur, deyirlər. Və belə əsaslandırırlar ki, artıq qəzet dövrü başa çatıb. Onu sosial media əvəz etmək qüdrətinə sahibdir. Yəni insanlar kütləvi şəkildə sosial şəbəkələrdə olduğundan elə mətbuatı da oradan izləyir, maarifl ənirlər. Bu platformalarda isə bütün media subyektlərinin yaxşı jurnalistləri də var, yaxşı olmayan da. Yaxşı olanlar az, yaxşı olmayanlar çox olduğundan isə peşəkarlıq kölgə altında qalır. Və ortalığa çıxan məhsullar heç də oxucu zövqünü oxşamır. Ən əsası isə sosial media əsasən xəbər janrına üstünlük verir. Digər qəzet janrları isə qəzet kimi, deyəsən, arxivə yollanmaqdadır. Yəni onların da dövrü başa çatıb. Xəbər janrı isə ümumilikdə yeni bir mətbuat növü ortaya çıxarıb: sərlövhə mətbuatı. Bu barədə danışaq. Görək nədir səhlövhə mətbuatı...



## Yalnız sərlövhə...

Qəzet oxumamaqdan söhbət gedirsə, guya sosial mediada oxuyanlar çoxdur? Müasir dövrdə insanlar özlərini oxumaq hissindən, zövqündən məhrum ediblər. Bu, istər ənənəvi mətbuat, istərsə də internet mətbuatı olsun, fərq etmir. İndi insanlar məlumatı videolardan görüntülü və səsli almağı sevir.

Bu gün əksər sosial media izləyicisi yalnız sərlövhələri oxuyub keçir. Ona görə də burada da jurnalist peşəkarlığı mətbuat adamının karına gələ bilir. Belə ki, elə sərlövhə seçməyi bacarmalısan ki, oxucunu maraqlandırsın və yazının içərisinə daxil olub oxusun və bəyənsin. Bundan istifadə edən bəzi adını junalist qoyanlar isə artıq sərlövhəni "xüsusi bacarıqla" seçməyi qarşılarına məqsəd qoyur ki, bəli, eləsini seçmək lazımdır ki, oxucunu maraqlandırsın və o, yazının içərisinə təşrif buyursun, bəlkə "like" qazana bilək . Belə olan halda isə sərlövhə ilə yazı ayrı-ayrı bulaqların suyu olur. Sərlövhədə bəhs olunan məsələdən yazının içərisində əsər-əlamət olmur. Oxucu sərlövhəyə aldanıb yazıya keçir və orada bu anlaşılmaz vəziyyətlə qarşılaşaraq çıxır, müəllifi yaxşıca söyür və bir də həmin media subyektinə daxil olmamağa özünə söz verir.

Beləliklə, hər gün bir-bir çoxalan xəbər agentlik, sayt və portallarının işi yalnız onların necə işləməsindən asılı olur. Əksər oxucu isə sadəcə sərlövhəni oxuyub keçməklə kifayətlənir. Çünki hər xəbərə görə videolar çəkilir, internet televiziyaları hadisələri səs-



ləndirir və şərh edir. Bu da oxucuları oxumaq əziyyətindən xilas edir və onlar dinləməyi daha müvafiq hesab edirlər. Lakin bu gün qəzet ümumiyyətlə, oxunmur fikrində olanlar bir qədər yanılır. Çünki...

## Az da olsa, hələ də qəzet oxuyanlar var...

Bəzən sual veririk ki, qəzet oxuyursunuz? Çoxları cavab verir ki, əlbəttə. Lakin "indi qəzet oxuyan var?" deyənlər də az deyil. Bəli, əvvəlki illərlə müqayisədə qəzet oxumaq dəfələrlə azalıb insanlar arasında. Nəinki qəzet, həm də kitab oxuyanlar. Elə bu səbəbdəndir ki, ölkədə fəaliyyət göstərən yüzlərlə kitabxana qapısından ayda bir dəfə oxucu içəri keçir, ya keçmir.

Lakin istər qəzet, istər kitab olsun, az da olsa, hələ də oxuyan var. Qəzet oxumaq həm bir alışqanlıq, həm hobbi, həm maraq dairəsi, əsasən də ziyalılıq deməkdir. Qəzet oxumaq əksər insanlarda həm də bir aclıq hissidir. Bu mənəvi aclığı onlar yalnız qəzet oxumaqla dəf edə bilirlər.



Texnologiyanın inkişafına, internet mediasının çap mediasından qabaqda olmasına baxmayaraq yazılı mətbuat bəzi insanlar tərəfindən hər zaman əl-əl axtarılır və oxunur. Lakin biz etiraf edək ki, dünyada yaxşıları deyil, pisləri əxz etməkdə birinciyik. Bunu geyimimizlə, saçımızla, estetik əməliyyatlarımızla, davranışımızla, yeniliklərə can atmağımızla hər zaman isbatlayırıq.

Dünyada isə hələ də qəzet oxuyanlar var. Həm də inkişaf etmiş ölkələrdə. Məsələn, hesabatlara görə dünyada ən çox qəzet satılan iki ölkə Norveç və Yaponiyadır... Norveçdə hər min nəfərdən 684-ü, Yaponiyada isə hər min adamdan 646-sı hər gün qəzet alıb oxuyur. Tiraj baxımından dünyanın 100 ən böyük qəzetindən 20-si Yaponiyadadır. Onu 18 qəzetlə ABŞ, hər biri 16 qəzetlə Çin və Hindistan izləyir. Maraqlıdır ki, Avropa ölkələri tiraj sıralamasında Hindistandan belə geri qalır... Qlobal tiraj rəqəmlərinə nəzər saldıqda dünyada qəzet oxucularının sayının bir milyardı ötdüyü görünür...

Qonşu Türkiyədə də qəzet oxuyanların sayı az deyil. Bizdə də qəzet oxuyanlar var, həm də tək paytaxtda deyil, regionlarda belə. Redaksiyamıza gələn zənglərə əsasən bunu deyirəm. Hə, regionlardan söz düşmüşkən, biz çap məhsullarımızı regionlara çatdırırıqmı? Əslində bu işi görə biləriksə, onda görərik ki, həqiqətən də çap mediasına maraq çoxdur. Çünki insanlar xəbərlə yanaşı, digər janrlarda olan yazıları, təhlil, araşdırmaları da oxumaq istəyirlər. Baxmayaraq ki, internet mediasından sonra qəzet janrlarını da o dünyaya göndərmişik, lakin hələ də əsl jurnalist olanlar onları yaşatmaqdadır. Az olsalar da...

## İnternet-xəbər mediası

Bu gün "internet mediası nədir?",- deyəndə hamının ağlına gələn tək xəbərdir. Hər gün agentlik və saytlarda, sosial şəbəkələrdə qarşımıza çıxan minlərlə xəbər var. Bir-birinin təkrarı, bəzən istinadlı, bəzən istinadsız xəbərlər. Bəlkə də bir xəbərlə gün ərzində ayrı-ayrı saytlar, sosial şəbəkələrin təqdimatı ilə 10 dəfə qarşılaşırıq. Çünki indi özü xəbər istehsal edən agentlik və saytlar çox az saydadır. İnsanlara xəbər ötürən "jurnalistlər" özlərinə əziyyət verib yeni xəbər axtarışına çıxmır, oradan-buradan oğurlamaqla xəbər yaradırlar.

Bax, elə təkcə xəbərlə əhatə olunduğuna görə də müasir dövrün internet mediyasının adı xəbər və sərlövhə mətbuatından savayı heç nə deyil. Yalnız xəbər. Hələ elə xəbərlərlə qarşılaşırıq ki, sadəcə çağırış və reklam xarakterli səhlövhədən və iki aydın olmayan cümlədən ibarət olur. Beləliklə, biz dünyada və ölkədə baş verən hadisələrin yalnız adını bilirik. Nə üçün, nə səbəbdən,



hansı əsasla baş verməsindən isə tamamilə xəbərsizik. Beləliklə, bu qənaətə gəlmək olur ki, sosial media xəbərə və sərlövhəyə xidmət edir və izləyicilərə çatdırdığı ən çox budur.

Bunu başqası yox, biz mətbuat işçiləri bu günə salmışıq. Ənənəvi mətbuatda olduğu kimi, internet mətbuatında da çoxsaylı peşəkar olmayan jurnalistlər artıq məsələni bu həddə gətirib çıxarıblar. Deməli, sosial medianı da ənənəvinin ardınca göndərmək üçün nə isə etmək lazımdır. Çünki aydın görünür ki, bu gün ölkəmizdə sosial mediada yalanlar doğruları üstələyir, reklam həqiqətdən çoxdur və ya hər kəs jurnlaist ola bilir.

## Belə isə gələcəkdə jurnalistika fakültələrinə ehtiyac qalacaqmı?..

İndi ki hər bir sahənin adamı jurnalist ola bilir, özünə istədiyi an bir sayt, portal, səhifə açıb orada junalistlik fəaliyyəti ilə məşğul ola bilirsə, deməli, ali təhsil ocaqlarımızdakı junalistika fakültələrinin hər il yüzlərlə jurnalist hazırlaması məsələsinə də baxılmalıdır. Yəni bu gün onlar üçün yaxşı iş şəraiti, əmək haqqı olarsa, ənənəvi mətbuatın korifeylərindən dərs alan jurnalistlər başqa sahələrə üz tutmaz, mətbuatda qalar, çalışar. Belə olan təqdirdə isə "çörəyi ver çörəkçiyə" məsəli ilə sosial mediadan gözləntilər tamamilə başqa cür olar. Xüsusilə hər yoldan ötən mediayanın qapısından keçə bilməz.

Lakin hazırda həmin oxunaqsız, çağırışçı media nümunələri təhsilli jurnalistlədən çox qeyri-ixtisaslı, ən pisi isə jurnalistikadan xəbəri olmayan istedadsız və savadsız adamlarla doludur. Belə olan təqdirdə isə hər gün onlarla eyni xəbərlə, bəzən eyni, bəzənsə bir qədər dəyişdirilmiş sərlövhələrlə qarşılaşırıq. Oxuyanda isə xəbərin ya 2-3 cümlədən ibarət olduğunu, ya da xəbər janrının tələblərinə uyğun gəlmədiyinin şahidi olursan. Hələ Azərbaycan dilinin qrammatikasına, üslubuna vurulan zərbələrdən, yoxa çıxan, təxirə salınan durğu işarələrindən danışmıram.

Deyirlər, yaxşı elə yaxşıdır, pis olandan danımaq lazımdır ki, bəlkə o da yaxşıya doğru istiqamətlənər. Məhz elə buna görə də bu gün media aləmindəki çatışmazlıqlardan danışmaq istədim ki, bəlkə qarşıda yaxşıya doğru bir irəliləyiş görə bilərik.

Yaxşılarsa yaxşı olaraq qalır. Ölkəmizdə hazırda həm ənənəvi, həm də sosial media fəaliyyət göstərir və hər ikisində peşəkar jurnalistlər var. Oxuduqca mənəvi dünyamıza işıq saçan yazılarla onlar hər zaman oxucularla görüşdədir.

## İnternet və çap mediası: hər ikisi, yoxsa tək sosial?..

Bu gün bütün dünyada sosial media çap mediasını üstələyib. Nəyi ilə? Xeyr, xüsusi özəl olanları ilə deyil, insanlara sürətli əlçatanlığı, onların seçimini dəstəkləməsi ilə. Oxumaqdan uzaqlaşan insanların oxumadan məlumat əldə etməsi ilə.

Müasir dövrdə hər iki növ mətbuata ehtiyac var. Bunların ayrı-ayrı üstün cəhədləri mövcuddur. Odur ki, mən bir junalist kimi hər ikisinin fəaliyyət göstərməsinin tərəfindəyəm. Biri dünənimiz, biri bu günümüzdür. Bəs gələcəyimiz daha çox onların hansı ilə var ola bilər?..

Beləliklə, bu qənaətə gəlmək olar ki, dünyada yazılı mətbuat aktuallığını birdəfəlik itirə bilməz. Yəqin o məqama çatdıqda oturub papaqlarını qarşılarına qoyub fikirləşənlər olacaq. Və onlar da bu qənaətə gələcəklər ki, yazılı mətbuatın üzərindən xətt çəkmək tarixin üzərindən xətt çəkmək deməkdir. Ölkənin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrin arxivini vərəq-vərəq cırıb küləyə vermək deməkdir.

İnternet mətbuatına arxayın olub yazılı mətbuatı itirmək xalqın tarixinin itməsinə səbəb ola bilər. Çünki heç kim internet mediasına bel bağlaya bilməz. Sabah nə olacağını heç birimiz bilmirik. Yenə də vurğulayaq ki, bir anın içində bu gün saatlarla qopa bilmədiyimiz internetin, sosial şəbəkələrin yaddaşı silinib gedə bilər. Bəs bu zaman əldə nə qalar? Bu barədə düşünən olubmu?..

Beləliklə, internet, yoxsa çap mediası?.. Əslində hər ikisi. Hər ikisi də vacibdir. Hər



ikisi günümüzdür, lakin çap mediası dünənimiz kimi, həm də sabahımızdır. Sosial media necə, sabahımız ola biləcəkmi?

Sərlövhə, reklam, "like" qazanmaq sosiallığını üstələyən internet mediasına xüsusi nəzarət gərəkdir. Necə ki, uzun illər boyu ənənəvi media haqqında qanun olub, həmin qanun əsasında işləmişik, sosial media haqqında da qanun hazırlanıb qəbul edilməlidir. Fəaliyyət də bu qanuna əsaslanmalıdır. Yoxsa, illər sonra bu gün ənənəvi media haqqında danışdığımız gözəl fikirlərin birini belə sosial media haqqında söyləyə bilməyəcəyik.

***Mətanət Məmmədova***

# Erməni puluna oynayan üzdəniraq konqresmenlər

## Bu hal ABŞ Konqresinin daim əsas problemlərindən biri olub və zaman-zaman bu qurumun nüfuzuna ciddi xələl gətirib

ABŞ Konqresinin Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin üzvü, demokrat Bred Şerman Konqresin Ermənistan məsələləri üzrə Komitəsinin sədr müavini seçilib. Məlumatı Ermənistan mediası yayıb. Qeyd olunub ki, ABŞ Konqresinin 100-dən çox üzvdən ibarət olan bu komitəsi Ermənistan-ABŞ əlaqələrinin gücləndirilməsi və Ermənistanla bağlı məsələlərin irəlilədilməsi ilə məşğul olur. "Mənim üçün bu komitənin sədr müavini olmaq böyük şərəfdir. Təxminən üç onillik ərzində ABŞ-la Ermənistan arasında əlaqələrin möhkəmləndirilməsi, ermənifobiyaya qarşı mübarizə və ABŞ-ın erməni icmasının maraqlarının qorunması istiqamətində çalışmışam. Sədr müavini kimi mən bu irsə əsaslanaraq həmkarlarımla Ermənistan və onun xalqı üçün demokratik, təhlükəsiz və firavan gələcək üçün səy göstərəcəyəm", - Şerman bildirib.

Bəli, o, düz deyir. Bu siyasətçi illərdir ki, ermənilərin, eləcə də LGBT hüquqlarının müdafiəçisi kimi tanınır. Erməni lobbisinin, diaspor qüvvələrinin təsiri altında fəaliyyət göstərir. B.Şerman hələ 2019-cu ilin iyunun 25-də Azərbaycanın hücum imkanlarını gücləndirməsinə mane ola biləcək bir dəyişiklik təqdim etmişdi. O, Amerika istehsalı olan silahın hesabına Azərbaycanın hərbi hava qüvvələrinin zərbəendirici imkanlarını təkmilləşdirmək perspektivinin qarşısının alınmasını istəyirdi. Sözsüz ki, bu məsələdə də Amerika Erməniləri Milli Komitəsinin (ANCA) xüsusi rolu var idi. Çünki bu barədə ANCA öz saytında məlumat yaymışdı. Sözügedən məlumata görə, təşəbbüs Bakının Xankəndidə yerləşən hava limanına uçacaq mülki aviasiya vasitələrinə daim təhlükə törətməsinin qarşısını almağı hədəfləyirdi. Yəni, bu dəyişiklik ABŞ-ın Azərbaycana hava hücumundan müdafiə sistemini gücləndirə biləcək silah satışını əngəlləyəcəkdi. Məlumdur ki, Birləşmiş Ştatlar Azərbaycan arasında bir sıra sahələrdə geniş əməkdaşlıq olsa da, silah ticarəti yoxdur. Ancaq zamanzaman Konqresdə erməni lobbisinin maraqlarından çıxış edən konqresmenlər çalışırlar ki, Azərbaycana qarşı hansısa qərarlar qəbul edilsin. Bu yöndə müəyyən səylər göstərirlər.












Bu baxımdan, Bred Şermanın Azərbaycanla bağlı təklifləri də ermənipərəstliyin və ikiüzlüyün bariz nümunəsidir. Ümumiyyətlə, bu kimi hallar ABŞ Konqresinin daim əsas problemlərindən biri olub və ABŞ Konqresinin nüfuzuna ciddi xələl gətirən məqamlardan biridir. Məsələn, bu ilin sentyabrında ABŞ Konqresinin Nümayəndələr Palatasına "Artsax Gəlirlərinin Bərpası Aktı" adlı qanun layihəsi təqdim edilmişdi. Qanun layihənin müəllifi, Kaliforniyadan olan konqresmen Adam Şiff idi. Qanun layihəsində "Qarabağın işğalı zamanı o ərazilərdə yaşayan ermənilərə maddi kompensasiyaların verilməsi"ndən bəhs olunurdu. Bu baş verməyəcəyi təqdirdə isə Azərbaycana qarşı sanksiyaların tətbiq olunması məsələsi ortaya atılmışdı. Bunun ardınca "Artsax Gəlirlərinin Bərpası Fondunun" yaradılması həyata keçirilməli, bu fond Azərbaycanın müsadirə edilmiş aktivlərini almalı, daha sonra bu vəsaitlər Azərbaycanın "hərbi hücumu" nəticəsində əmlakı, biznesi və iş yerlərini itirmiş "Artsax"dan didərgin düşmüş ermənilərə kompensasiya vermək üçün istifadə edilməlidir.

Burada xüsusi qeyd olunmalıdır ki, Azərbaycanın ötən il həyata keçirdiyi antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun olub və Azərbaycan heç vaxt mülki əhalini hədəf almayıb. Bunu çoxsaylı faktlar da sübut edir. Hərbçilərimiz 24 saatdan da az çəkən antiterror əməliyyatını əsl zərgər dəqiqliyi ilə icra etdilər. Nəticədə yalnız hərbi təyinatlı obyektlər, yeni silah anbarları, atəş mövqeləri və nöqtələri vuruldu, eyni zamanda, xeyli sayda terrorçu həbs edildi. Əməliyyatın digər unikallığı onda idi ki, mülki infrastruktura və Qarabağın erməni əhalisinə heç bir ziyan dəymədi. Onu da qeyd edək ki, Azərbaycan tərəfi Qarabağdan erməni əhalinin köçündə heç zaman maraqlı olmayıb. Azərbaycanın istəyi bölgədə yaşayan erməni əhalinin reinteqrasiyasına nail olmaq, onları təxminən son 30 ildə Ermənistanın və qanunsuz separatçı xunta rejiminin girovluğundan qurtararaq, ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatına qovuşdurmaq idi. İşğal bitdikdən sonra Azərbaycan özünün erməni sakinləri ilə təmas qurmağa hazır olduğunu bildirib. Amma bütün bunlara baxmayaraq, ermənilərin özlərinin təxribatları ötən ilin 19-20 sentyabr hadisələrinin baş verməsini şərtləndirdi. Amma bu reallıqları erməni pulu və dəstəyi ilə fəaliyyət göstərənlər, o cümlədən də Adam Şiff görmək istəmir. Onu da xatırladaq ki, bu, konqresmenlərin ölkəmizə qarşı ilk qərəzi deyil. Əvvəllər də ermənipərəst konqresmenlər Azərbaycanın əleyhinə müxtəlif layihələri icra etməyə çalışıblar. Məsələn, bəzi ermənipərəst konqresmenlər dövlət katibi Antoni Blinkenə məktub yazaraq "Qarabağda kökü kəsilməkdə olan erməni irsi" barədə "narahatlıqlarını" bölüşmüşdülər. Bundan başqa, ABŞ Konqresinin 26 nəfərlik heyəti ABŞ Dövlət katibi Antoni Blinkenə və ABŞ Prezidentinin baş müşaviri Con Podestaya məktubla müraciət edərək, Azərbaycanın COP29-a sədrliyini əsassız və absurd ittihamlarla qaralamağa cəhd etmişdilər. Bu dəfə isə yenə əndazəni aşan konqresmenlər iddia edirlər ki, ABŞ-dakı azərbaycanlılara məxsus şəxsi aktivləri ələ keçirmək və "Artsaxa hərbi hücumda iştirak etmiş və ya dəstək vermiş yüksək rütbəli Azərbaycan nümayəndələrinə və onların yaxın ailə üzvlərinə viza məhdudiyyətləri tətbiq etmək" lazımdır. "Köçkün ermənilərin" fonddan təzminat almaq üçün müraciət etməsinə imkan verən sadələşdirilmiş prosesin yaradılması da təkliflər sırasındadır.

2024-cü il "Artsax Gəlirlərinin Bərpası Aktı" konqresmenlər Frank Pallone, Anna Eşu, Qeyb Amo, Coys Biti, Cim Kosta, Coş Gottheimer, Duq LaMalfa, Ses Magaziner, Ceyms Makqovern, Qreys Meng, Kevin Mallin, Qreys Napolitano, Elyanor Holms Norton, Jan Şaakovski, Linda Sançez, Bred Şerman, Dina Titus və Lori Trahan tərəfindən dəstəklənir. Onların hamısı erməni lobbsinin fəal üzvləridir və erməni diasporundan külli miqdarda pul alırlar. Məsələn, Şiff 2011-ci ildə erməni-amerikan dostluq əlaqələrinin möhkəmlənməsinə və inkişafına, qondarma "erməni soyqırımı"nın beynəlxalq səviyyədə tanınmasına mühüm töhfəyə görə "Mxitar Qoş" ordeni, 2021-ci ildə isə "Dostluq" ordeninə layiq görülüb.

***Sevinc Azadi***

# ““Soyuq əllər, isti ürək”də hər şey nağıl kimidir”

REPORTAJ

Hər il ənənəvi olaraq ”Nargis” Fondu tərəfindən Fəvvarələr Meydanında təşkil olunan ”Soyuq əllər, isti ürək” xeyriyyə yarmarkası bu il də təşkil edilib. Təşkil olunmuş yarmarka sakinlərin və turistlərin diqqət mərkəzindədir. Yarmarkada qurulmuş xeyli sayda evciklərdə yeni il aksesuarları, yeni il hədiyyələri, suvenirlər, təbii əl işləri və eyni zamanda kofe, çay, eləcə də, digər isti və soyuq içkilər vətəndaşlara təqdim olunur. Yarmarkanın qonaqları eksklüziv suvenirlər, hədiyyələr əldə edə, münasib qiymətə Qərbin və Şərqin unikal ləzzətli təamlarını kəşf edə, tematik guşələrə baş çəkə, soyuq qış günündə isti içkilərlə isinə, müxtəlif oyunlar oynaya, şəkillər çəkdirə və sevdikləri ilə birlikdə özlərini əsl qış nağılında hiss edə bilərlər. Burada hər kəsi çoxlu sürprizlər, tədbirlər və tematik günlər gözləyir. Bu il yarmarkada qiymətlərdə dəyişiklik varmı, yoxsa keçən illə eynidir? İnsanlar daha çox almağa, yoxsa baxmağa gəliblər? SİA yarmarka və qiymətlərlə bağlı sakinlərin fikirlərini öyrənib.



**Şəhər sakini Şəbnəm Mirzəyeva:** ”Biz 2016-cı ildən fəaliyyət göstəririk. Burada işləyirəm. Məhsullarımız Holland pankekləridir. Həmçinin də, kreplər hazırlayırıq. Eyni zamanda çaylar, kofelər münasib qiymətə-



dir. Qonaqların gəlməsini gözləyirik. Ümumi abu-hava da çox gözəldir. Alıcılıq qabiliyyəti yaxşıdır. Yarmarka dünən açılıb. Dünən çox insan var idi. Hazırladığım Holland pankekidir. Nutella və meyvələrlə hazırlayırıq. Hər cibə uyğundur”.

**Şəhər sakini Şəbnəm Ağazadə:** ”Daha çox almağa gəlmişik. Amma həm də baxırıq.



Keçən ilki qiymətlərlə bu ilki qiymətlər arasında fərq olub-olmadığına baxırdım. Deyəsən, keçən ilə baxanda artıb. Hələ hamısına baxmamışıq. Seçim etməmişik. 15-20 dəqiqədir ki, gəzirik. Yeni il abu-havası var. Onsuz bu Yeni il yarmarkasında həmişə gözəl əhval-ruhiyyə olur. Bu il də eynidir. Bu yarmarkanı çox sevirəm ”.

**Turist Jofer Peterson:** ”Yeni il yarmarkasını çox sevdim. Burada hər şey nağıl kimidir. Möcüzəli və gözəldir. Mən Azərbaycanı çox sevirəm. Yeni ili Azərbaycanda qarşı-



lamaq planlarım var. Ümumi bayram əhval-ruhiyyəsi müşahidə olunur. İnsanlar çox mehribandır”.

**Şəhər sakini Fidan Məlikova:** ”Yarmar-



kaya yemək üçün gəlmişəm. Hələlik bir stendə yaxınlaşmışıq. Hamısı ilə tanış olmamışıq. Qiymətləri qaldırıblar. Amma satılan yeməklərin dadı ləzzətlidir. Yarmarkaya hər il gəlirəm. Buranı çox sevirəm. İnsanı başqa aləmə aparır, nağıl dünyası kimidir. Uşaqlar üçün daha maraqlı olsa da, böyüklər üçün də maraqlı tərəfləri çoxdur. Dostlarla əylənmək, sevdiklərinizlə vaxt keçirmək üçün münasib yerdir”.

**Şəhər sakini Məryəm Məmmədova:** ”Yarmarkanı çox bəyəndim, çox xoşuma gəlir. Hələ bu ilki yarmarkaya təzə gəlmişəm.



Dünən açılıb. Hər il də gəlirəm. Ətrafda hər şey gözəldir, yeməklər dadlıdır. Karusellər, maraqlı suvenirlər var. Bura uşaqlar üçün daha əyləncəlidir. Mən vaxtımı yarmarkada keçirdiyim üçün sevinirəm. Qiymətlər bir az çox olsa da, yarmarka üçün uyğun olduğunu düşünürəm”.

**Şəhər sakini Mələk Abbasova:** ”Yarmarkaya daha çox yararlanmaq üçün gəlmişəm. Hər il burada oluram. Qiymətlərdən raziyam, münasibdir. Yeni il abu-havası isə



çox hiss olunur. İnsanların üzündə sevinc, bayram əhval-ruhiyyəsi var”.

**Şəhər sakini Gülşərəf Zülfüqarova:** ”Həm baxmağa, həm də almağa gəlmişəm.



Keçən ilə nisbətən görünüş daha yaxşıdır, amma qiymət baxımından deyə bilmərəm. Ümumi abu-hava hava çox yaxşıdır. Yeni ilin gəlişi hiss olunur. Bu il də bayram sevincini hiss etmək olur”.

**Şəhər sakini Zəhra Zülfüqarova:** ”Tələbəyəm. Gəlmişəm ki, görüm, necə əhval-ru-



hiyyə var. Çox bəyənirəm, gözəldir. Qiymət baxımından eynisini deməк olmaz. İnsanların üzündə təbəssüm var. Bu çox xoşuma gəlir. Yeni iliniz mübarək olsun”.

Burada olarkən bir daha müşahidə edirik ki, ziyarətçilər arasında Yeni il əhval-ruhiyyəsi olduqca yüksək səviyyədədir. Təşkil olunmuş xeyriyyə yarmarkasına yerli vətəndaşlar kimi xarici qonaqların da marağı və kütləvi axını müşahidə olunur. Soyuq əllər, isti ürək” xeyriyyə yarmarkasında vaxtın necə keçdiyindən xəbər tutmaq olmur. Burada insan rahatlıq tapır, həm də əsl Yeni il ab-havası yaşayır.

***Söylü Ağazadə***















# Trendin kölələri və ya sabun köpüyündən gündəm

***Böyükdən kişiyə, yaşlıdan cavana hamının maraqla baxdığı, çoxunun təkrarlamaq istədiyi gündəm - sosial şəbəkə trendləri günümüzdə dəbdir. Biri bir trend başlatsın, hamı özünü o axına qoşulmağa məcbur hiss edir. Böyük sürətlə başlayan və hər kəs tərəfindən tətbiq edilən sosial media trendlərinə yeni biri əlavə olundu. Son günlərin trendi də müəllim və şagirdlərin pilləkənlərdə düzülərək qəribə pozalarda şəkil çəkdirmələri, bu görüntüləri əcaib musiqilər ilə montaj etmələridir.***



Əgər trendlər üçün bir bənzətmə fikirləşsək ən uyğun ifadə ”sabun köpüyü” ifadəsi olar. Yəni trend adı altında nümayiş etdirilən hərəkətlər bir anlıq məşhurluq və anında unudulan davranışlardır, eynilə üfürülən köpüyün yoxa çıxması kimi. Trendlərin bu dərəcədə populyarlaşması texnologiyanın inkişafı ilə bağlıdır. 3-5 il əvvələdək başqa trendlər dəb idi, gənclər şəhərdə flaşmoblar keçirirdi, rəqs edirdi və ya mahnı oxuyurdu. Bəzən kitab oxumağa təşviq, yardımlaşma temalı trendlər də gördük, amma kütlənin diqqətini çəkmədiyi üçün onlar əriyib yox oldu. Günümüzün trendi də hər gün dəyişir. Bir gün qırmızı alt paltarında foto çəkib paylaşmaq dəb olur, bir gün kamera qarşısında dirsəyini yalaya bilmək bacarığı yoxlanır, bir gün uşaqlıq fotosu nümayişi trendi dəb olur, başqa bir gün ərin gülməli vəziyyətlərdə yaxalanması, digər gün arvadın yataq halı. Məhrəm olan hər şey publik edilib, insanların ”stop” düyməsi yoxdur.







Trendlər sadə bir əyləncə kimi görünə bilər, amma bu təkcə sosioloji təhlükə deyil, həmçinin iqtisadi və psixoloji təsirləri də var. Bu proses zamanı hedonizm (planlaşdırılmış həzz və ya həzzin kölәsi olmaq) və narsisizm (öz maraqları üçün başqalarını istifadə edən, özünü hər şeydən əhəmiyyətli hesab edən) ön plana çıxır. Virtual məkanda insanlar bir-birini təqlid edir, virtual yamsılama üsullarından həzz alır. Günümüzdə smartfon terroruna məruz qalan nəsil var. Bu, 2000-ci ildə və ondan sonra doğulan nəsildir, fenomen videolarını təqlid edən və eyni videoları çəkməyə çalışan nəsil. Onlar texnologiyadan istifadə etməyi yaxşı bacarırlar, amma rəqəmsal savadları yoxdur. 11-12 yaşlı uşağın smartfonu anasından və atasından daha yaxşı istifadə etməsi, hər cür məlumatı rahatlıqla əldə edə bilməsi onun həmin məlumatlardan düzgün istifadə edəcəyi anlamına gəlməməlidir. O, əldə etdiyi məlumatlardan necə istifadə edəcəyi ilə bağlı məlumatlı deyil. Rəqəmsal savadlılıq təhsili uşaqlarla yanaşı ailələrinə də verilməlidir.



İndi hamı hər şeyi kamera önündə edir, özünü buna məcbur hiss edir. İnstaqramda övladının bütün məhrəmiyyətini paylaşan analar, bütün gününü kamera qarşısında keçirən gənclər, həyat yoldaşı ilə məhrəm səhnələr çəkib paylaşan kişilər. Vəziyyət o həddə çatıb ki yataq otağından belə canlı yayım açıb sosial şəbəkədə yayımlayanlar kütləviləşib. Üstəlik bu videoların hansı daha çox baxış qazanırsa, izlənirsə o trend kimi təkrarlanır. Beləcə, eyni motivli videolar internetdə ayaq açıb yeriyir.

Əvvəllər insanlar evlərində, həyatlarında etdiklərini bu qədər nümayiş etdirmirdilər. İnternetin həyatımıza girdiyi ilk illəri nəzərdə tuturam. İllər keçdikcə insanlar virtual asılılığa istiqamətləndilər, indi əksəriyyət tamamilə texno-kölədir, trendlərin əsiridir. Gündəlik həyatındakı hər addımını, yediyini, içdiyini, geydiyini kameraya çəkib paylaşanlar və özünü trendlərlə ayaqlaşmaq məcburiyyətində hiss edənlər sürətlə artır. Kamera qarşısında pul üçün soyunanlar, ədəbsiz hərəkətlər edənlər, daha çox baxış qazanmaq uğrunda bütün dəyərlərindən keçən kütlə günü-gündən böyüyür.

Gündəm, trend yaratmaq arzusunda olan, insanları təəccübləndirmək istəyən nəsil bir-biri ilə yarışa girib, əcaib geyim, qəribə makiyaj nümayiş etdirən gənclər çoxalıb. Amma insanlar unudur ki, trendlər bəzən çox təhlükəli ola bilər. Təhlükəli yerlərdə çəkilən foto-trendlər səbəbindən faciəvi şəkildə ölən, yaralanan, şikəst qalan insanların varlığından əksəriyyətimiz xəbərdarıq. Kifli fıstığın satılması da trendlər sayəsində oldu, amma əksər insan nə yediyinin fərqində olmadı. Hətta ən ağlı başında olan insanlar belə o şokoladı yeyə bilmək üçün dəridən-qabıqdan çıxdıŞ məşhurlar, sadə vətəndaşlar dayanmadanDubay şokoladı videoları paylaşdı.

Əslində, əksər trendlərin sürətlə yayılmasının kökündə qısamüddətli pul qazanmaq istəkləri dayanır. Əvvəllər imtahanlarda aldıqları qiymətlərlə, olimpiadadakı nəticələri ilə, oxuduqları kitabların sayı ilə yarışan gənclər indi paylaşdıqları foto və trendlərin bəyənmə və izləyici sayı ilə yarışır. Sosial şəbəkə kanalları monoton insanların formalaşmasına səbəb olub, elə o o insanlar da internet məkanında bir növ monopoliya yaradıblar.

İnsanlar sosial şəbəkədə etdiklərini başqalarından fərqlənmək üçün edirlər, amma əslində təqlid edirlər. Çünki indi gündəmdə olan o videolar başqalarını təqlid etməkdir.

Başqa bir şəbəkə istifadəçisinin etdiyi hərəkətin eynisini etmək də internetdə trend olur. Trendlə fenomen olanlar da olur, əsl məqsəd də budur - asan yolla pul qazana bilmək istəyi. Amma hər yeni fenomen əvvəlkini unutdurur. Cəmiyyət olaraq sosial mediaya həddən artıq aludə olmuşuq. Bu vəziyyət bizi texno-qul, texnoloji kölə vəziyyətinə saldı. Trendlərə qoşulma məcburiyyəti hiss edənlərin demək olar ki, hamısı texnologiyanın köləsi olan insanlardır. İnsanlar əslində bunun zərərlərini bilirlər; amma təəssüf ki, axından geri qalmamaq istəyi güc gəlir. Yeganə həll yolu düzgün təhsil və əlbəttə ki, rəqəmsal savadlılıq haqqında məlumatlılığın aşılanmasıdır.

Yəqin ki amerikalı rəssam Endi Uorholun unudulmaz sitatını eşitmisiniz: ”Bir gün hamı 15 dəqiqə məşhur olacaq”. Həmin gün dövrümüzdədir, hamı trendlərlə bir neçə dəqiqə də olsa məşhur ola bilir. Amma müəllimlərin bu trendlərə alət olması xoş mənzərə deyil. Dərs keçərkən video çəkib paylaşan, dərs prosesi boyunca gözü telefonda olan, canlı yayım açıb sinfi nümayiş etdirən müəllimlərin sayı gündən günə artır. Müəllimlər müəllim olmaqdan uzaqlaşıb tiktoker olmaq yolunda sürətlə irəliləyir. Axı siz müəllimsiniz, şoumen, fenomen deyilsiniz.

Hamının gördüyü, çoxlarının iştirakçısına çevrildiyi şokoladlı trend dəbdədir son günlər. Yaşlı-gənc bütün müəllimlərə şokolad verir şagird və tələbələr. Müəlliminə hörmət, sevgi üçün edir bəlkə də çoxları, amma bunu kameraya çəkib paylaşmaq, trend etmək lazım deyildi. 8-10 müəllimin dərs dediyi siniflərdə bir müəllimə bu jestin edilməsi digərlərinə haqsızlıq kimi qiymətləndirilə bilər onlar tərəfindən, diqqətdən-qayğıdan kənar qaldıqlarını düşünə bilərlər. Yəni dolayısı ilə müəllimlər arasına nifaq salır şokolad trendi.

Ötən il müəllimlər pilləkanlara düzülüb gözlərində eynək, əlləri qoynunda dayanıb video-foto trendinə qoşulmuşdu. Trendin mahiyyəti hələ də qaranlıq qalıb, o müəllimlər nə demək istəyirdi, bilinmir. Elmi nailiyyətlər trendinə, olimpiada trendlərinə, haqqı tapdanan həmkarınızın müdafiə trendini yaradıb ona qoşulmaq lazımdır. Sinif otaqlarından durmadan video paylaşan və bunu şagirdlərin motivasiyası üçün çəkdiyini iddia edənlər, şagirdə summativlərdə, buraxılış və qəbul imtahanlarında ”necə tiktoker olmaq olar?” sualı verilməyəcək. Təhsillə verin motivasiyanı, bilik yarışları ilə, olimpiadalarla verin. Müəllimin borcu cəmiyyətə faydalı elmli, savadlı kadrlar yetişdirməkdir, sosial şəbəkə fenomeni yox.

***Lalə Mehralı***

# “Vətən dedikdə insanın yaşadığı ərazi nəzərdə tutulur”

**“İslam şəriətinə əsasən hər bir insan öz Vətənindən 8 fərsəx məsafəyə kənarlaşsa, dörd rükətli namazları iki rükət qılmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib.**



O bildirib ki, burada bir neçə termin oldu: ”Biri ”öz Vətənindən” termini, biri ”8 fərsəx” termini, biri də ”dörd rükətli namazlar” ifadəsidir. Vətən dedikdə insanın ölkəsi nəzərdə tutulmur. Vətən dedikdə insanın yaşadığı ərazi nəzərdə tutulur. Bir kənddə yaşayırsa, həmin kəndin çıxacağı onun Vətənindən çıxış nöqtəsi olur. Şəhərdə yaşayırsa, o şəhər onun Vətənidir. O şəhərdən çıxdığı andan etibarən 8 fərsəx məsafə hesablanır. Yaxud da, bir ölkədə yaşayırsa, ölkənin çıxışı onun yaşadığı şəhərdirsə, o ölkədən çıxışı hesablanır. Vətən insanın yaşadığı kənd, şəhər, qəsəbə ola bilər. İstənilən halda insan yaşadığı məkandan 8 fərsəx hesablanmalıdır. 8 fərsəx müctəhidlərin, fəqihlərin leksikonunda müxtəlif formatda ifadə olunur. Bəziləri 8 fərsəxi 45 km, bəziləri 44 km, bəziləri 41 km hesab edirlər. Hər halda əgər bir insan yaşadığı kənd, şəhərin çıxacağından gedib-gəlməsi 8 fərsəx məsafə təşkil edən məsafədə çıxırsa, dörd rükətli namazları iki rükət qılacaq. Məsələn, bir nəfər Bakı şəhərindən çıxıb üzü Salyana tərəf gedir. Bakı şəhərinin çıxacağı Bibiheybət ziyarətgahından o tərəfə başlanır. Oradan gedəcəyi yerə qədər hesablamalıdır. Əgər getməsi və qayıtması 20 km yarım edəcəksə, Bakıdan çıxdığı andan etibarən azan verirsə, dörd rükətli namazları iki rükət qılmalıdır. Bu ümumi hökmdür. Bir nəfərə səfər çətin, asan, uzaqdırsa, minimum 8 fərsəxdirsə, bunlar nəzərə alınmır. Əgər gedib-gəlməsi 8 fərsəx olacaqsa, namazları qəsr qılmalıdır.

Dörd rükətli namaz niyə deyilir? Çünki sübh namazı və şam namazı qəsr qanununa aid deyil. Bu hökm yalnız dörd rükətli namazlara aiddir. Bu qanunun da bəzi təfərrüatları var. Bir nəfər günah etmək üçün səfərə çıxırsa, onun səfəri şəriət baxımından səfər sayılmır. Ona görə də, səfərdə namazlarını qəsr qılmalı deyil, bütöv qılmalıdır. Bir nəfər ova çıxır, uzaq məsafə qət edəcək. Məqsədi bu ovdan ət deyil, əylənməkdir. Bu adamın səfəri haramdır. Yaxud, bir nəfər uzaq məsafəyə gedir ki, günah etsin, içkili məclisə gedir. Onun namazı qəsr olmur. Çünki onun səfəri şəriət baxımından səfər hesab olunmur”.

”Bəzi istisnalar da var. Uzaq yol gedən sürücülər, yaxud, işi səfərdə olan məmurlar, kadrlar, işçilərin səfərlərdə namazları qəsr olmur. Çünki onlar həmişə səfər halındadırlar. Bir də müqəddəs yerlərdən Məkkə şəhərində insan ixtiyar sahibidir ki, namazını qəsr, yaxud da, tam qılsın. Digər şəhərlərdən Kufə məscidinin içində, Kərbəla ziyarətgahının içində namazı qəsr, tam qılmaq insanın öz ixtiyarındadır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Saxta xəbər”lə necə mübarizə aparmalı?

## *EKSPERT FAKTLARI AÇIQLADI*




”İnformasiya texnologiyalarının sürətli inkişafı yaşadığımız dövrdə informasiya istehsalını və yayımını sürətləndirir. İndi hər bir insan ya xəbər alıcısı, ya da xəbər istehsalçısıdır. Amma gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil. ”Saxta xəbər”, ”dezinformasiya” da xəbər dövriyyəsində böyük paya malikdir. ”Saxta xəbər” insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir”. Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib.



O bildirib ki, bu cür xəbər bolluğunda düzgün olanı seçmək, informasiya etibarlılığını müəyyənləşdirmək üçün insanların müəyyən bacarıqlara malik olması vacibdir: ”İnsanlar özləri doğru xəbəri saxta xəbərdən ayırd edə bilməli, yalan xəbərin təsirinə düşməkdən yayınmağı bacarmalıdırlar. Yaxud, özləri xəbər mənbəyi rolunda çıxış edərkən, obyektiv davranmağı bacarmalıdırlar. Bir sözlə, insanlar xəbər istehsalı, emalı və istehlakı barədə ən azı ümumi biliglərə malik olmalıdırlar. Bütün bu elementlərin hamısı ”media savadlılığı” proqramında ifadə olunur”.

Ekspert qeyd edib ki, 2022-ci ildən qüvvəyə minmiş ”Media haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə media savadlılığının artırılmasını zəruri tələb kimi irəli sürür: ”Qanunun tələbinə uyğun olaraq, müvafiq qurumlar öz səlahiyyətləri çərçivəsində işlər həyata keçirirlər. Bu sahədə ən sistemli proqramlar Medianın İnkişafı Agentliyi tərəfindən hazırlanaraq icra olunur. Agentlik media savadlılığının artırılması yönündə işlərin səmərəliyini təmin etmək üçün 2023-cü ildə ”Medialiteracy.media.gov.az” portalını yaradaraq istifadəyə verib. Bu portal media savadlılığı istiqamətdə məlumat almaq istəyənlər üçün mühüm töhvəyə çevrilib. Agentlik, həmçinin, çoxsaylı konfranslar, seminarlar və təlimlər təşkil edib. Bu günlərdə ”media savadlılığı həftəsi” qismində kampaniyalar təşkil edir. Fikrimcə, bu cür proqramların və kampaniyaların təşkil olunması Azərbaycanda media savadlılığının inkişaf etdirilməsini stimullaşdırır”. https://medialiteracy.media.gov.az/

***Seyranə Quliyeva***



# Köçkünlüyə son!

MƏTANƏT

**18 dekabr- Beynəlxalq Köçkün Günüdür. Bu günün daşıdığı mənaya uyğun olaraq 30 ildən artıq məcburi qaçqın və köçkünlük həyatı yaşayan soydaşlarımızdan söhbət açmaya bilməzdik. Artıq dövlətimiz məcburi köçkünlüyə son qoyub. Ölkəmizin minlərlə köçkününün hər biri öz ata-baba yurdunun azadlığını görüb, əksəriyyəti yurd-yuvasına qayıdıb. Böyük Qayıdış Proqramı davam edir. Yaxın gələcəklə onların hamısı doğma evlərinə qayıdacaq. Çünki daşı daş üstündə qalmayan Qarabağ və Şərqi Zəngəzurun əraziləri dövlətimiz tərəfindən yenidən qurulur.**

1990-cı illərdən başlayaraq ermənilərin Azərbaycan torpaqlarında olan tamah dişi minlərlə soydaşımızın xoş gününü, səadətini didib-parçaladı. Onları doğma ata-baba yurdundan didərgin saldı. 126 yaşayış məntəqəsi zorla boşaldıldı. XX əsrin ən faciəli hadisələrindən biri törədildi - 6000 azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edildi. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, Qarabağ, ətraf rayonlardan, həmçinin Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşdı. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak oldu, 100 min nəfər yaralandı, 50 min insan müxtəlif dərəcəli xəsarət aldı. 1 milyon 200 mindən çox qaçqın, məcburi köçkünü oldu Vətənimizin...

2020-ci ilin 44 günlük İkinci Vətən müharibəsinin Zəfərlə bitməsi yurdundan məcburən qovulan və 30 ildən artıq köçkün, qaçqın həyatı yaşayan soydaşlarımızın üzünü güldürdü. Qəlbləri fərəhlə döyündü, qürur hissi yaşadılar. Çünki artıq bu statusu daşımayacaqdılar. Onlar müzəffər Ali Baş Komandanımızın və əzəmətli milli ordumuzun əyilməz zabit və əsgərlərinin hünər meydanında göstərdiyi qəhrəmanlıqla öz ata-baba torpaqlarının yenidən sahibi olmuşdular.

2023-cü ildə ilin sentyabr ayının 20-də birgünlük lokal xarakterli antiterror əməliyyatı ilə Xankəndi, Xocalı, Xocavənd kimi tarixi torpaqlarımız öz sahiblərinə qovuşdu. Mənfur ermənin Qarabağdan və Şərqi Zəngəzurdan birdəfəlik ayağı kəsildi.

18 dekabr-Beynəlxalq Köçkün günündə 30 ildən artıq qaçqınlıq həyatı yaşayan soydaşlarımızı yada saldıqca, onların 30 il yurdsuz, evsiz-eşiksiz yaşadıqlarını düşündükcə qəlibimiz yenidən düşmənə qarşı sonsuz nifrətlə dolur.

Qələbə qazansaq da, Zəfər bizim olsa da, lakin qaçqın-köçkünlərimizin 30 illik həyatını unutmaq olarmı? Bu torpaqlar uğrunda canından keçən şəhidlərimiz, sağlamlığından keçən qazilərimiz var. Onların hər birinin Qarabağımızın anası Azərbaycana qovuşmasında misilsiz qəhrəmanlığı olub.

Köçkünlük həyatı yaşayan soydaşlarımız tarixin bütün dövrlərində anılacaq. Çünki bizim köçkünlükdə yaşlaşan gənclərimiz oldu. Köçkünlükdə yurd həsrəti ilə dünyasını dəyişən ağbirçək, ağsaqqallarımız oldu. Evinin, həyətinin xəyalını qəlbinə gömən insanlar, uşaqlığı Qarabağda və Şərqi Zəngəzurda qalan, gəncliyi qaçqınlıqda keçən soydaşlarımız oldu.

Torpaqlarımız bu gün azaddır. Hər azad torpağımızda üçrəngli bayrağımız dalğalanır. Minlərlə insan artıq evindədir, qayıdıb, yaşayır. Digərləri isə qayıdacaq.

Lakin onların qaçqın, köçkün kimi 30 il ərzində nələr yaşadığı unudulmayacaq. Və qaçqınlıq, köçkünlüyü yaşayan xalq kimi bütün dünyada buna məcbur qalan insanlara böyük yanğı ilə yanaşırıq. Çünki onlar da bizim taleyimizin eynisini yaşayırlar.

Qoy bütün dünya ən yaxın gələcəkdə bu günü Köçkünsüz Dünya Günü kimi tarixin səhifəsinə yazsın. Son qoyulsun köçkünlüyə. Bir parça torpağı heç kim sahibinə çox görməsin. Axı insanlar müqəddəs torpaqlarına yaxından bağlıdır. Onlar torpaqsız-yurdsuz özlərini heç yerdə xoşbəxt hiss etmirlər. Görəsən dünya bunu anlayırmı?

# Əli Kərimli dağıdıcı müxalifətin başıbəlalı simasına çevrilib





Uzun illər siyasətdə olmalarına baxmayaraq dağıdıcı müxalifətin üzdə olan simaları cüzi belə siyasi uğur əldə edə bilməyiblər. Səbəbi də dağıdıcı müxalif ünsürlər səhv, yanlış siyasət aparmalarıdır. Yəni xaricdən verilən tapşırıqları analiz etmədən, nəyin pis, nəyin yaxşı olacağını hesablamadan tezisləri yaymaları, anlaqsız ifadələrlə çıxış etmələridir. Dəfələrlə Müsavat, AXCP, Milli Şura rəhbərliyi cəfəng iddialar, ittihamlarla çıxışlar ediblər. Ortaya dəlil və sübutlar qoyulanda məlum olub ki, Ə.Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri bilərəkdən və ya bilməyərəkdən ciddi səhvlərə yol veriblər. Lakin bu halda belə müxalif ünsürlər yol verdikləri kobud səhvlərinə görə, üzrxahlıq etməyiblər, yanlış statuslarını sosial şəbəkələrdən silməyə maraq göstərmirlər. Əksinə, bir növ at kimi üzə durub demək istəyirlər ki, onlar mövqelərində haqlıdırlar.

## Zaman sübut etdi ki, Əli Kərimli siyasətdə təsadüfi şəxsdir

Əli Kərimli, Cəmil Həsənli və digərləri 44 günlük Vətən müharibəsinə qədər " torpaqlarımızın azadlığı mümkün olmayacaq" deyirdilər. Hətta aralarında elələri vardı ki, "bir kənd işğaldan azad edilsə, qulağımı kəsəcəm" deyirdi. Ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. Xankəndi şəhərində, bayrağımız ucaldıldı, hərbi parad keçirildi. Lakin boşboğazlıq edənlər nə qulaqlarını kəsdilər, nə də ki, sayıqlamalarına görə xalqdan üzr istədilər. Əksinə, utanıb-çəkinmədən nala-mıxa vuran fikirlərini davam etdirdilər. Laçında kömrük postu və sərhəd keçid məntəqəsi qurulan zaman başladılar "Qələbə yarımçıqdır" - deyə mənasız və cəfəng fikirlər səsləndirməyə. Utanmaz məxluqlar bu istiqamətdə bir xeyli vay-şivən qopartdılar. Lakin bu anormal fəaliyyət də uzun çəkmədi. Onlara daha bir sərt şillə 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə bölgədəki bütün terrorçu hərbi birləşmələrin məhv edilib, əksər separatçı başların həbs edilərək istintaqa təhvil verilməsi ilə oldu. Oktyabrın 15-də isə Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev Xankəndi şəhərində xalqa müjdəli müraciət etdi və əzəmətli binanın qarşısında Azərbaycanın üçrəngli bayrağını ucaltdı. Bu qürurverici anları dünyanın əksər televiziyaları yayımladı, mətbuatları işıqlandırdı, dostlar millətimizə təbrik məktubları ünvanladılar. Yenə də Ə.Kərimli, C.Həsənli, A.Hacılı öz məkrli niyyətlərindən və qərəzli açıqlamalarından əl çəkmədilər. 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində Xankəndi şəhərində səsvermədə iştirak edən Yenilməz Sərkərdə, Ali Baş Koman İlham Əliyev və ailəsi bununla bir daha bütün bəşəriyyəti Xankəndinin, Ağdərənin, Xocavəndin, Şuşanın, Ağdərənin, Əskəranın, Xocalının və digər ərazilərin əbədi olaraq Azərbaycan dövlətinin ayrılmaz hissəsi olduğunu nümayiş etdirdi. Gözləmək olardı ki, özündə cəsarət tapan Ə.Kərimli və digərləri nəhayət, səhvlərini etiraf edəcək və düz yolun yolçusu olmadıqlarını cəmiyyətə nümayiş etdirəcəklər. Hətta düşünmək olardı ki, bundan sonra Ə.Kərimli "siyasətin onluq olmadığını" bəyan edib, AXCP sədrliyini tərk edəcək. Bu da baş vermədi.

## Cəmil Həsənli Əli Kərimlinin sözçüsü rolunda çıxış edir

Bu gün də siyasətdə olduğunu iddia edən Ə.Kərimli ardıcıl olaraq yanlış fikirlər söyləyir, qeyri-ciddi davranışlar göstərir. Deputat Razi Nurullayev parlamentdə çıxışı zamanı bildirib ki, müxalifət olmaq olar, amma birinci dövlətçi olmaq lazımdır: "Barmağınızı qatlayın görək İsraildən başqa hansı ölkə cinayətkarları, xüsusən də cibində milyardlarla dollar daşıyan və dünyada söz sahibi olan birini tutub başına torba keçirsin? Ruben Vardanyan kimi bir avantüristi və terroru dəstəkləyən cinayətkarı tutub damlamaq bilirsiniz nə deməkdir? O, İlon Maskın Mars planetini fəth etmək planından daha üstündür. Bu, ağılların kəsmədiyi bir qəhrəmanlıqdır. Nə qədər gec deyil, birlik olun, düşmən dəyirmanına su tökməyin, xalqla, dövlətlə bir olun ki, gələcək nəsillər siyasi tarix kitablarını oxuyanda sizi nifrətlə anmasın! Sonda təklif edirəm ki, Prezident İlham Əliyev üçün bir orden, ad düşünək. O, təvazökardır deyə bir çox səsləndirilən təklifləri qəbul etməyəcək. Bu sahədə təkliflərim çoxdur və onu parlament rəhbərliyi ilə bölüşə bilərəm. Yaxşı olar ki, təkliflər də parlament rəhbərliyi tərəfindən səsləndirilsin və məmnuniyyətlə dəstəkləyəcəm". Azad və demokratik şəkildə keçirilən prezident seçkilərindən sonra dağıdıcı müxalifət və onların tör-töküntüləri məkrdən ibarət olan pozucu əməllərini daha geniş şəkildə inkişaf etdirirlər. Demək olar ki, bütün cəbhəçilər trol qismində oturublar sosial şəbəkələrdə, ancaq şər yazır, böhtanlar səsləndirirlər. Yenə də Ə.Kərimli əsas rolda çıxış edir. Yazdığı statusları fərqlidir. Bir saat əvvəl Qərbin müdafiəçisi rolunda çıxış edib, AŞPA-nın Azərbaycan haqqında qəbul etdiyi qərəzli qətnaməyə haqq qazandırıb, özünün qara rəngdən ibarət fikirlərini ifadə edirsə, sonrakı saatlarda hökumətin ünvanına əsassız ittihamlar tirajlayır.

Proseslərə əsasən demək olar ki, Əli Kərimli 44 günlük Vətən müharibəsi başlayandan bu günə qədər ictimai siyasi həyatda baş verən hadisələrə özünün dayaz düşüncəsi, ağılsız yanaşmaları ilə münasibət bildirib. Əksər münasibətləri elə Qərbin qaranlıq dairələrinin və Ermənistandakı revanşistlərin mövqelərindən fərqlənməyib. Bu da onun ermənipərəst dairələrin sifarişləri və göstərişləri əsasında Ermənistandakı revanşistlər kimi düşünüb, fikirlər söylədiyini təsdiqləyir. Ancaq anlamır ki, artıq Azərbaycan 1990-1993-cü illərdəki zəif dövlət deyil. Bu gün güclü və qüdrətli Azərbaycan dövləti var. Hansı ki, bu dövlətlə dünyanın hər bir dövləti hesablaşır və ölkəmizin dəstəyi olmadan regionda heç bir beynəlxalq layihə reallaşa bilməz. Ona görə də, ermənipərəst dairələr, o cümlədən Koçaryan, Sarkisyan, Ohanyan, eyni zamanda Ə.Kərimli, Cəmil Həsənli anlamalıdırlar ki, Azərbaycan dövləti və xalqı istənilən təxribatın, pozucu hadisənin qarşısını qətiyyətlə almağa hazırdır. Hətta bir qədər də irəli gedərək, tarixi Azərbaycan əraziləri olan İrəvanı və digər şəhərləri gəlmə toplumdan təmizləməyi bacarar.

***İLHAM ƏLİYEV***

# Əmlak nə zaman etibarlı sayılmır?



**"Məhkəmə gedişatında tərəf mübahisəli əmlakı başqa şəxsə satmışsa, yaxud bağışlamışsa, o zaman məhkəmə iddiaçı tərəfin müraciəti ilə həmin alqı-satqı (bağışlama) müqaviləsinin etibarlı olub-olmamasına baxa bilər". Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü Paşa Səfərov deyib.**



O bildirib ki, bu halda əmlakın yeni sahibi də işə cəlb olunmalı və məhkəmə onun vicdanlı əldə edən olub-olmaması məsələsini aydınlaşdırmalıdır: "Hər bir halda mübahisəli əmlakla bağlı məhkəməyə müraciət edilərkən yaxşı olar ki, əmlakla bağlı müəyyən hərəkətlərin edilməsi, o cümlədən onun özgəninkiləşdirilməsi əmlak mülkiyyətçisinə qadağan olunsun. Bu barədə məhkəmə tərəfindən iddiaçının müraciəti əsasında müvəqqəti xarakterli təminat tədbirinə dair qərar da qəbul edilə bilər. Əgər əmlak məhkəməyədək satılmışsa, o zaman iddiaçı tərəfindən qaldırılan iddia zamanı əmlakın hər iki həm köhnə, həm də yeni mülkiyyətçisi tərəf qismində işə cəlb edilməlidir. Əgər satılmış əmlak məhkəmə tərəfindən etibarlı sayılmazsa, o zaman əmlak köhnə sahibinə qaytarılır, yox əksinə etibarlı sayılırsa, o zaman əmlak yeni sahibində qalır ki, bu zaman iddiaçının əmlakla bağlı tələb hüququ əmlakın köhnə sahibinə qarşı pul tələbi ilə əvəz edilir.



Əgər mənzildə qeydiyyatda olan şəxs xaricə köçmüşsə və onunla əlaqə kəsilmişsə, bu halda mülkiyyətçi həmin şəxsin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması üçün aşağıdakı hərəkətləri etdikdən sonra mənzilini satmaq imkanını əldə edəcəkdir. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 2-ci bəndinə əsasən, başqa ölkədə yaşayış yeri seçdikdə, şəxs müvafiq icra hakimiyyəti orqanlarının məlumatına əsasən yaşayış yeri üzrə qeydiyyatdan çıxarıla bilər.

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 14 iyun 1996-cı il tarixli Fərmanının 2.4.-cü maddəsinə əsasən, həmin Qanunun 9-cu maddəsinin birinci hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirirlər. Beləliklə, mənzilin mülkiyyətçisi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət edərək mənzilində qeydiyyatda olduğu şəxsin başqa ölkədə yaşayış yeri seçdiyi barədə məlumatı əldə etməli, sonra həmin məlumatla yaşadığı rayon üzrə polis idarəsinin pasport qeydiyyat şöbəsinə müraciət etməli və xaricdə yaşayan şəxsin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasını tələb etməlidir".

***Söylü Ağazadə***

BAXIŞ BUCAĞI

# Dostları yaxında axtarın

## Rusiyalı jurnalistin Ermənistana iradları və təmbehedici fikirləri



Regionda vəziyyət, ölkələr arasında münasibətlər daim aktual olan mövzulardandır. Hərə münasibətləri, əlaqələri öz çapında qurur və çalışır ki, bütün bunlar milli maraqlara mənfi təsir etməsin. Mütləq qazanc da keçərli deyil, çünki qarşı tərəfin də öz maraqları var. Qalır uzlaşma yaratmaq, qarşılıqlı anlaşmanı təmin etmək. İndiki vəziyyətdə, dünyanın tonusunun yüksək olduğu dönəmdə yalnız özünü düşünmək, öz maraqlarının tam təmin olunmasına çalışmaq keçərli olmaya bilər. Zamanı və imkanı dəyərləndirmək, zamanında addım atmaq ən münasib variantdır.Rusiya mətbuatında Cənubi Qafqaz regionunda ölkələrarası münasibətlər barəsində maraqlı məqalə dərc olunub. Onu rusiyalı jurnalistin prizmasından olsa da dərc etməyi lazım bildik. Həm də Rusiya-Ermənistan münasibətlərindəki gizli çalarları aşkara çıxarmaq üçün bu məlumatların üstünlükləri var.

Uzun müddət Ermənistanla bağlı danışıqlar təxirə salınırdı. Təkcə Moskva-İrəvan-Bakı üçbucağında münasibətlərin incəliyinə və 1991-ci ilin nəticələrinə görə məsuliyyətimizi dərk etdiyimizə görə yox. Baxmayaraq ki, Rusiya və Ermənistan liderləri arasında dialoq hələ də kəsilməyib. İki ölkənin parlamentariləri arasında davamlı təmaslar kimi, o cümlədən Rusiyanın məşhur siyasətçilərinin İrəvana səfəri ərəfəsində ümidverici amil də var. Amma digər tərəfdən, KTMT daxilində münasibətlər uzun müddətdir ki, qeyri-müəyyən vəziyyətdədir.Bununla belə, indiki mərhələmizlə bağlı aydınlığı faktlarla işləyən Xarici Kəşfiyyat Xidməti (XKX) gətirdi. Mövzunun xüsusi incəliyi də budur ki, Ermənistanla bağlı İrəvanın razılaşmadığı istənilən məlumat ermənilərin milli ləyaqətinin təhqiri kimi qəbul edilir. Hansı ki, bəzən fəsadlar yaradır. Özünütənqid yolu ilə mən razıyam ki, yaşlı ermənin çıxışından sonra azərbaycanlı gəncə televiziyada danışmağa icazə verməK səhvdir: Qafqaz Qafqazdır...

### Əvvəlcə faktura

XKX-nin press-relizində deyilir: "ABŞ Dövlət Departamenti Ermənistanda qərbyönlü inkişaf formatına çevrilmə prosesini sürətləndirir və onu "milli intihara" sövq edir. ABŞ Ermənistanda qərbyönlü vətəndaş cəmiyyəti strukturlarının işini sürətləndirir. Ermənistan hökumətinin işini Qərbin maraqlarına uyğunlaşdıracaq xarici müşavirlərin fəal iştirakını təmin etmək tapşırılıb. Ermənistanda gedən ictimai-siyasi proseslərdə anti-Rusiya istiqamətinin formalaşdırılması planlaşdırılır. Buna nail olmaq üçün İrəvanla Rusiya, Aİİ və KTMT arasında əməkdaşlıq imkanlarını gözdən salmaq üçün kampaniyaya start veriləcək. Vaşinqton hesab edir ki, Ermənistan ən yaxın tərəfdaşları ilə sabit ticarət-iqtisadi əlaqələrdən əl çəkməlidir".Bunlar mübahisə edə bilməyəcəyiniz rəqəmlərdir. Dünyada cəmi 10 milyon erməni var, onlardan 3 milyonu Ermənistanda, 2,5 milyondan 3 milyona qədər Rusiyada, təxminən 1 milyonu ABŞ-da, 500-dən 700 minə qədəri Fransada. İndi azərbaycanlılar haqqında: Dünyada azərbaycanlıların sayı 50 milyondan çoxdur, o cümlədən Azərbaycanın özündə 10 milyon, İranda azı 30 milyon (əhalinin beşdə üçü), Rusiyada yarım milyondur.Ötən il Rusiyadan Ermənistana pul köçürmələri təxminən 4 milyard dollar təşkil edib, respublikanın büdcəsi isə 6 milyarda çatıb. Ticarət dövriyyəsi təqribən 7 milyard dollardır. 2024-cü ilin sentyabrında keçirilən Dünya Erməni Sammitində çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Ermənistanın dövlətçiliyini qoruyub saxlamağın yeganə yolu Qərb dünyası ilə strateji tərəfdaşlıq, o cümlədən Avropa İttifaqına daxil olmaqdır. Eyni zamanda, İrəvan Moskva ilə əlaqələrini itirmək istəmir. Onlar orada koqnitiv dissonans görmürlər.



### Dərman, zəhər və gələcəyin elmi

Biz tarixlə bağlıyıq. Onun rusca variantında ermənilərin layiqli yeri var. Loris-Melikov, Delyanov, Mikoyanın və bir çox başqa ermənilərin rus-sovet dövlətçiliyinin möhkəmlənməsində xidmətləri danılmazdır. Bununla belə, İrandakı erməni muzeyini də xatırlayıram. Şah sarayının xidmətində olan ermənilərin portretləri qalereyası ilə. Ancaq bizim üçün Sovet İttifaqının bütün xalqlarının, ilk növbədə, 1945-ci ildə Qələbəyə töhfəsi göz qabağındadır. Azərbaycanın xüsusi əhəmiyyətini ayrıca qeyd edək. Sovet Ordusu yanacağın 90%-dən çoxunu oradan alırdı. Amma bu gün 1991-ci ildə bir vaxtlar ümumi vətənin dağılmasının nəticələri daha aktualdır.Bu, bir çox qonşular arasında münasibətləri gərginləşdirib. Və yalnız Minsk minimum məsələlərlə Moskva ilə müttəfiq qarşılıqlı əlaqəni dəstəkləyir. Şimal-Şərq Hərbi Dairəsinin qaçılmazlığı əsas şeyi təsdiqlədi: geosiyasi rəqiblərimiz əvvəllər etnik mənşəyi haqqında nadir hallarda düşünən qonşuların tarixi əlaqələrində əhəmiyyətli nifaq yarada bildilər. Yadıma Əfqanıstandakı həmkarım - yarı erməni, yarı azərbaycanlı, uzaq gürcü kökləri olan polkovnik-leytenant Sarkis Xamedov düşür. Başqa bir qafqazlı, o zaman baş leytenant, indi Abxaziyanın "müdafiə naziri" Merabi Kişmariya 1980-ci illərin sonlarında demişdi: "Əgər Qafqazda hamımız bir yerdəyiksə, deməli, İttifaqda hamımız bir yerdəyik".Ermənilərlə azərbaycanlılar arasındakı mübahisələrin də yəhudilər və Fələstin ərəbləri arasındakı mübahisələr qədər uzun bir tarixi var. Hər tərəfin ilkin olaraq özününkü hesab etdiyi Qarabağ qarşıdurmanın qaynar mərhələsinin simvoluna çevrilib. Qarşı tərəf üçün "təhqiredici" və "zəhərli" detalları qarışdırmayaq. Bu gün Qarabağ ətraf torpaqların qarışıq mənsubiyyəti ilə Azərbaycandır. Digər qiymətləndirmələr, bir daha vurğulayırıq ki, vəziyyətin kəskinləşməsinə səbəb olacaq. Paradoks ondan ibarətdir ki, İsrailin birgə yaşaması və bərabər statuslu Fələstinin barışması üçün heç olmasa hipotetik ümid yaradır - onilliklərdən sonra və bununla maraqlanan bütün tərəflərin xoş niyyəti ilə. Eyni şeyi Ermənistan və Azərbaycan haqqında demək olmaz. Örtülü kağız istənilən "paraqraflara" tab gətirə bilər. Amma hər ikisinin ruhunda qan kin-küdurəti gələcək nəsillər boyu qalacaq. Amma nəyisə dəyişməyə qadir olan inteqrasiya düsturu hələ tapılmayıb. Çətin ki, bu formul Paşinyanın ümid bəslədiyi Avropa İttifaqı tərəfindən təklif olunsun. Türkiyə onilliklərdir ki, Aİ-yə daxil olmağa çalışsa da, bu günə qədər uğursuz alınıb. Üstəlik, türkiyəli politoloqlar hesab edir ki, buna Fransa və ABŞ-dakı (ermənipərəst) dairələr mane olur. Digər aspektlərdə isə türklər ermənilərlə kifayət qədər inadkarcasına danışdıqları "əməkdaşlıq" üçün o qədər də perspektiv görmürlər. Amma ciddi şəkildə sənədləşdirilərsə, Ankara, İrəvan və hətta Bakı eyni vaxtda Aİ-yə daxil olarsa, 20 milyon İran azərbaycanlısı faktoru yaranar. İranı Avropa Birliyinin üzvü kimi təsəvvür etmək üçün kifayət qədər təsəvvür yoxdur. Nə biri, nə də digəri bunu xəyal etmir.







### Xəbərdarlıqlar və məsləhətlər

Gəlin onların xəbərdarlığından başlayaq ki, bu da Paşinyanın Qərbin Ermənistanı müdafiə etməsinin qarantiyası kimi anti-Rusiya alyansına qoşulmaq niyyətindən aydın görünür. Aydındır ki, İrəvan da Aİ-yə üzv olmaq üçün NATO-ya daxil olmağa çalışacaq. Bizi demirəm, bu, proqnozlaşdırılan Azərbaycanla münasibətləri pisləşdirəcək. Yeni "qonşuluq" müharibəsi ərəfəsinə qədər. Yeri gəlmişkən, İrəvan və Bakı hələ də sülh müqaviləsi imzalamayıb. Buna görə də Ermənistanın ən azı beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsi üzərindəki suverenliyi mübahisələndirilə bilər. Hər şeydən əvvəl hərbi güclə. Türkiyənin "ifadəli" bayraktarları ilə hansı tərəfdə olacağı bəllidir. Ermənistanın Türkiyə ilə, bəlkə də Azərbaycanla sərhədinin yenidən Rusiyaya "etibar ediləcəyi"nə dair eyhamlar ciddi deyil: yarı bizimlə, yarısı bizə qarşı olmaq ağlasığmazdır.Bundan əlavə, Ermənistan Avro-Atlantik məkanın qalan hissəsindən nəzərəçarpacaq dərəcədə təcrid olunub. Onun Qərblə güzəştli iqtisadi qarşılıqlı əlaqəyə ümidinin nəyə əsaslandığını anlamaq çətindir: doğrudanmı erməni brendi? Əks halda, Ermənistanın özünün resursu böyük ölçüdə şübhəlidir. Bəlkə Ermənistan, Gürcüstan, Türkiyə, Azərbaycan və İran arasında dayanıqlı kommunikasiyalar (yollar, boru kəmərləri, elektrik xətləri) sisteminin yaradılmasına diqqət yetirməklə başlayaq? Bu, Xəzərdən Aralıq dənizinə, Fars körfəzindən Qara dənizə qədər logistik zəncirlər yaratmağa imkan verəcək.Əgər söhbət "Qərblə kollektiv regional müdafiədən" gedirsə, o zaman Ermənistanla həmsərhəd üçüncü ölkə olan Gürcüstanın həqiqətən də başqa avantüraya qarışmağa ehtiyacı varmı? Ukrayna göstərdi ki, Rusiya ordusu "08/08/08" ərəfəsində Saakaşvilinin ümid etdiyi kimi "dişsiz" deyil. Ermənistan bizimlə həmsərhəd olmasa da, onun nümunəsi, daha doğrusu, bugünkü yanaşmaları başqaları ilə - sərhədlərimizin perimetri boyu nə və necə baş verdiyini xatırlamağa əsas verir.Ona görə də bizim tərəfimizdən xəbərdarlıq. Artıq "milli intihar"dan söz açılıb. Gəlin ideyanı inkişaf etdirək: demək olar ki, 2,5-3 milyon rusiyalı erməninin hamısı birbaşa, o cümlədən kilsələrdə Paşinyanın Qarabağlı soydaşlarına və həmkarlarına, ümumiyyətlə, Rusiyaya xəyanətindən danışır. Dünyanın qalan hissəsində yaşayan ermənilər monolit deyil. Ermənilərin sağlam düşüncəsi ola bilər, yoxsa belə çətin şəraitdə sağ qala bilməzdilər. Çox müdrikliyə malik olan çinlilərin bir aforizmi var: çeynəyə biləcəyinizdən çox dişləməməlisiniz...Buna görə də İrəvana yaxşı məsləhət: yaxınlıqda dostlar axtarın, başqalarını, o cümlədən dostlarınıza qarşı çıxanları məsafədə saxlayın. Çox gec olmadan, şantaj etmədən qonşularla barışığı təmin edin. Əks halda, bizim üçün ümumi xristian adətlərinə uyğun olaraq şam yandıracaqlar...

**V.VƏLİYEV**

*(TƏRCÜMƏ)*

# ABŞ-İran qarşıdurması: nüvə qiyamətinin qarşısını almaq mümkün olacaqmı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*






***ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp İranla müharibə ehtimalını istisna etməyib. O, bu barədə ”Time” jurnalına müsahibəsində bildirib. O, Tehranla münaqişə ehtimalı barədə suala ara verdi və sonra dedi: ”Hər şey mümkündür”. Lakin o, gələcəkdə İrana qarşı hansı addımların atılacağını dəqiqləşdirməyib.***

Eyni zamanda məlum olub ki, Donald Trampın komandası Tehranın nüvə silahı yaratmasının qarşısını almaq üçün İranın nüvə obyektlərinə hərbi zərbələr endirəcəyini istisna etmir. Bu barədə Amerikanın ”The Wall Street Journal” qəzeti mənbələrə istinadən yazır.



”Tramp İranın nüvə silahı istehsal etməsinə mane olmaq variantlarını, o cümlədən qabaqlayıcı hava hücumları ehtimalını nəzərdən keçirir”,- nəşr yazır. Qeyd edilir ki, bu, uzun müddətdir davam edən diplomatiya və sanksiyalarla Tehranı cilovlamaq siyasətini pozacaq addım ola bilər. WSJ materialında qeyd edildiyi kimi, nüvə obyektlərinə hərbi zərbə endirmək variantı indi Suriyadakı hadisələr fonunda onun keçid komandasının bəzi üzvləri tərəfindən daha ciddi şəkildə nəzərdən keçirilir. Qəzetin mənbələri bildiriblər ki, İranın regional mövqeyinin zəifləməsi və son vaxtlar ”Tehranın artan nüvə işinin ifşası” ”həssas daxili müzakirələrə” təkan verib.

Bundan əlavə, məlum olub ki, İsrail hərbçiləri də hesab edir ki, Suriyaya uğurlu kütləvi zərbələrdən sonra onların İrandakı nüvə obyektlərinə zərbələr endirmək imkanı açılır. Bu barədə ordunun ”Qalei İDF” radiosu məlumat yayıb. Qeyd olunur ki, İsrailin müxtəlif hərbi strukturları, o cümlədən ordu, ölkənin siyasi rəhbərliyinə Tehranla bağlı fəaliyyət variantlarını təqdim etmək üçün kəşfiyyat və müdafiə təşkilatları arasında koordinasiya aparır. İsrail ordusunun hesablamalarına görə, İsrailin hava zərbələrindən sonra əvvəllər güclü olan Suriya hava hücumundan müdafiə sistemi 80%-dən çox məhv edilib- IDF Galei bildirir. Əvvəllər Suriyanın hava hücumundan müdafiə sistemləri yəhudi dövlətinin aviasiyasına ciddi təhlükə yaradırdı, lakin indi vəziyyət dəyişir, Suriyanın hava məkanı, əslində, uçuşlar üçün açıqdır, radiostansiya izah edir.

İsrailin müdafiə naziri Yoav Qalantla Washington Post-a verdiyi yeni müsahibə də diqqətəlayiqdir. O, İsrailin oktyabrın 26-da 120 qırıcının iştirakı ilə həyata keçirdiyi hava hücumlarının ”İrana qarşı fəaliyyət pəncərəsi” yaratdığını bildirib.

Belə ki, İsrail artıq öz döyüşçülərinə Qəzza və Livanda olduğu kimi İrana zərbə endirmək üçün aydın dəhliz verib və oradakı hədəflərə asanlıqla hücum edə bilir. Buna görə də ABŞ-ın hazırkı administrasiyası İrana qarşı nüvə məsələsində məcburi diplomatiya üçün fürsət görür,- deyə Qalant bildirib.

Deməli, məqsəd İranı nüvə silahı yaratmaq imkanından məhrum etməkdir. Və məlumatlara görə, İsrail və ABŞ orduları belə bir əməliyyatda birgə iştirak edə bilər. Hazırkı şəraitdə belə planlar nə dərəcədə uğurlu ola bilər? Bəs İranın Suriyada Əsəd rejiminin və ona yaxın olan Livanda Hizbullahın məhv edilməsindən sonra zəifləmiş və məhdud mövqelərini nəzərə alsaq, Tehranın bu cür hərəkətlərə reaksiyası necə ola bilər? Bu barədə xarici ekspertlər Caliber.Az-la fikirlərini bölüşüblər. Rəyləri oxucularımıza təqdim edirik.

Amerikalı analitik və publisist Samson Katsman təsdiqləyib ki, İranın müvəkkilləri, Qəzzada Həmas və Livanda Hizbullahın məğlubiyyəti fonunda, eləcə də Orta Şərq regionunda İslam Respublikasının əsas müttəfiqi olan Bəşər Əsədin tamamilə süqutu fonunda ABŞ və xüsusilə də İsrailin siyasi dairələrində İranın nüvə proqramının gələcəyi ilə bağlı fəal müzakirələr gedir.

”İslam Respublikası sarsıdıcı məğlubiyyətə uğradı və ölkənin qonşularına və əsas qlobal oyunçulara öz iradəsini diktə edən regional hegemon rolunu şübhə altına aldı. Bu statusu bərpa etməyin ən qısa yolu nüvə silahına sahib olmaqdır. Bir çox analitiklərin fikrincə, Tehran onun yaradılmasından iki addım uzaqdadır. İranın nüvə klubuna daxil olması Yaxın Şərq üçün nüvə Armageddonu və bütövlükdə dünya üçün gözlənilməz nəticələr deməkdir. Yəhudi dövlətini məhv etmək məqsədini açıq şəkildə bəyan edən nüvə İranı İsrailin varlığına və regionda nüvə yarışının başlanmasına birbaşa təhlükədir: həm Türkiyə, həm də Səudiyyə Ərəbistanı nüvə paritetini bərpa etmək üçün hər şeyi edəcək. Mənə etiraz edilə bilər ki, İsrailin nüvə silahına malik olması açıq şəkildə bəyan edilmir. Bəli, bu doğrudur, yalnız İsrail heç bir qonşusunu yer üzündən silməklə hədələmir. İsrailin nüvə potensialı qorxutma və təhdid deyil, çəkindirmə vasitəsidir”,- ekspert vurğulayır.

***Sual ortaya çıxır- İranın nüvə təhlükəsinin aradan qaldırılması üçün hazırki vaxt nə dərəcədə əlverişlidir?***

”Görünür, sırf hərbi baxımdan buna praktiki olaraq heç bir maneə qalmayıb. Suriyanın hava hücu-




mundan müdafiə sistemləri 80% sıradan çıxıb və yüksək ehtimalla İranın hava hücumundan müdafiə sistemləri də İsrail Hərbi Hava Qüvvələrinin hücumlarından sonra kifayət qədər darmadağın edilib. İranın nüvə obyektlərinə zərbə endirilməsi məsələsi siyasi iradə, siyasi qərar məsələsidir. Çox güman ki, Amerika administrasiyasının icazəsi olmadan İsrail təkbaşına belə bir hücuma getməzdi. Texniki tərəfdən, israillilərin bunkerlər üçün Amerika partlayıcı bombalarına ehtiyacı olacaq.

Qeyd etmək lazımdır ki, İranın nüvə proqramının ləğvi ilə bağlı vəziyyət mütləq isti fazaya keçməli deyil. Həm Fars körfəzində, həm də Şərqi Aralıq dənizində güclü Amerika dəniz qüvvələrinin olması Tehranla sonrakı danışıqlar üçün çox ”inandırıcı dəlil”dir. Zamanla məhdudlaşan sərt danışıqlar İranın adi təxəyyüllərinə və hiylələrinə yer qoymur. Əminliklə deyə bilərik ki, Tramp administrasiyası ilə bu danışıqlar məhz belə olacaq. İran sülh yolu seçərsə”,- analitik vurğulayıb.

Onun fikrincə, İranın nüvə obyektlərinə zərbə endirməsinə mümkün cavabı ərəb körfəzi ölkələrinin neft hasilat potensialına hücum ola bilər.

”Mənim nöqteyi-nəzərimə görə, bu, intihara bərabər, İslam Respublikası üçün fəlakət olardı. Və İrana fanatik, ideoloji aludəçi insanlar rəhbərlik etsə də, yenə də görünür ki, onlar intihar etmirlər.

Sonda qeyd edirəm ki, Yaxın Şərqin tam nüvəsizləşdirilməsi, onun nüvə silahından tamamilə azad regiona çevrilməsi yalnız həqiqi sülhün bərqərar olması, təcavüzkar hazırlıqlar olmadan, nəsildən-nəslə ötürülən nifrət təbliğatı olmadan mümkündür. Təəssüf ki, bu günə qədər bu, yaxın gələcəkdən çox uzaq olan yaxşı bir arzudur”,- Katsman qeyd edib.

Ukrayna Gələcək İnstitutunun analitik mərkəzinin beynəlxalq siyasət və Yaxın Şərq üzrə eksperti İlya Kusa hesab edir ki, İranın bu vəziyyətdə yalnız iki yolu var.

”Birincisi, nüvə silahlarına sürətlə çatmaq üçün nüvə proqramını sürətləndirməyə çalışmaq və beləliklə, İsrailin indi meyl etdiyi və ABŞ-ı buna inandıra biləcəyi nüvə obyektlərinə qabaqlayıcı zərbələr endirmək ehtimalını azaltmaqdır.

Və eyni zamanda, İranın təsirinin hələ də güclü olduğu ölkələrdə, belə demək mümkünsə, müdafiə xəttini gücləndirmək lazımdır. İlk növbədə İraqda. Və Livanda, əlbəttə. Amma oradakı problemlər Hizbullahın zəifləməsi və çox güman ki, ABŞ və İsraillə genişmiqyaslı müharibəyə hazır olmaması ilə bağlıdır”,- analitik izah edib.

Ekspert düşünür ki, Tehran üçün ikinci variant, ABŞ-la, Tramp administrasiyası ilə razılığa gəlmək, onlara hansısa yeni nüvə sazişi əldə etmək üçün güzəştlər təklif etməkdir ki, bu da prinsipcə, Trampın çoxdan istəyidir, o, hətta prezident kimi ilk dövründə belə Obama ilə razılaşmadan daha yaxşı bir razılaşma əldə etmək istəyirdi.

”Yəni, o, bu barədə açıq danışdı və mən onun bu ideyasından əl çəkdiyini düşünmürəm. Və beləliklə, İran qısa müddətdə xoşagəlməz güzəştlərə gedir, eyni zamanda özünü İsrailin hücumlarından qoruya bilir. Uzunmüddətli perspektivdə Tramp getdikdən sonra, ümumiyyətlə, nüvə proqramına qayıda bilər”, - Kusa etiraf edir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
18 dekabr
2024-cü il

# DİQQƏT:

## Uşaqlarınızı bu qidadan qoruyun!



AYDINLIQ GƏTİRİLDİ

"Şokolad yağı uşaqlar arasında çox populyardır. Lakin onun tez-tez və ya həddindən artıq istifadəsi sağlamlıq üçün müəyyən risklər yarada bilər". Bu sözləri SİA-ya açıqlamasında həkim-pediatr Səbinə Məmmədova deyib. Onun sözlərinə görə, həkim-pediatrların bu mövzuda əsas tövsiyələri aşağıdakı kimidir:

**1.** Şəkər və kalori miqdarı

Şokolad yağları adətən yüksək miqdarda şəkər və kalori ehtiva edir. Bu, uşaqlarda:

Piylənmə

Diş çürüməsi

Şəkər asılılığı riski yarada bilər. Şəkərin həddindən artıq qəbulu həmçinin immunitet sistemini zəiflədə bilər.

**2.** Zərərli yağlar

Şokolad yağları adətən palma yağı kimi emal olunmuş yağlarla zəngindir. Bu yağların tez-tez qəbulu:

Ürək-damar xəstəliklərinin erkən inkişafına səbəb ola bilər.

Pis xolesterinin (LDL) səviyyəsini artıra bilər.

**3.** Vitamin və mineral çatışmazlığı

Şokolad yağı kimi məhsullardan tez-tez istifadə edən uşaqların qidalanması balanssız ola bilər. Bu, onların digər faydalı qida maddələrini (tərəvəz, meyvə, zülal) kifayət qədər qəbul etməməsinə gətirib çıxara bilər.

**4.** Allergik reaksiyalar

Şokolad yağı fındıq və kakao kimi allergiya yarada bilən komponentlər ehtiva edir. Allergik uşaqlarda bu məhsul istifadə edilməməlidir.

Pediatr məsləhətləri:

**1.** Məhdudlaşdırılmış istifadə

Şokolad yağı yalnız xüsusi hallarda və çox az miqdarda verilə bilər. Gündəlik olaraq bu cür məhsulları vermək tövsiyə edilmir.

**2.** Sağlam alternativlər

Təbii fındıq yağı

Bal

Təzə meyvə və ya tərəvəz dilimləri uşaqlar üçün daha sağlam alternativdir.

**3.** Şəkər miqdarına nəzarət

Uşaqların gündəlik şəkər qəbulunun Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən təklif edilən miqdarı aşmamasına diqqət edin.

**4.** Tərkibi yoxlayın

Alınan məhsulun etiketindəki tərkibi diqqətlə oxuyun. Şəkər və palma yağı kimi zərərli maddələrin yüksək səviyyədə olmasından çəkinin.

**5.** Qidalanma balansını qoruyun

Uşaqların gündəlik rasionunda tərəvəz, meyvə, zülal və tam taxıllı məhsullar olmalıdır.

Həkim-pediatrlar hesab edir ki, sağlam vərdişlər uşaqlıq dövründən başlayır. Buna görə də valideynlər uşaqlarına balanslı və təbii qidalanmanı öyrətməlidirlər".

*Ayşən Vəli*

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressalnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "Qalatasaray" Dibala ilə danışıqlara başlayıb

Türkiyənin "Qalatasaray" klubu İtaliyanın "Roma" komandasının futbolçusu Paulo Dibala ilə danışıqlara başlayıb. Türkiyə mediasının yazdığına görə, argentinalı futbolçunun meneceri Karlos Novel bununla bağlı İstanbula səfər edib. O, İstanbul klubunun rəhbərliyi ilə ilkin danışıqlar aparıb. Futbolçunun meneceri ötən gün "Qalatasaray"ın "Trabzonspor"u 4:3 hesabı ilə məğlub etdiyi Superliqa oyununu da tribunadan canlı izləyib.



## Azərbaycanda 2 min 8 yüz əkiz doğulub

***Bu ilin yanvar-oktyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri ölkədə 86 min 274 doğulan körpə qeydə alıb. SİA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.***



Qeyd olunub ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin min nəfərinə bu göstərici azalaraq 11,2-dən 10,1-ə düşüb. Bildirilib ki, doğulanlardan 108-si üçəm və 4-ü isə dördəmdir. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,0 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 47,0 faiz olub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700